21_27 IYUl-QARA.qxd 6/27/2024 11:44 PM Page 1

UNİKAL

№22 (2204) 28 iyun 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Azərbaycandan Ermənistana xəbərdarlıq: "Revanşizm xülyalarından əl çəkin, yoxsa..."



Səh.3

## Ceyhun Bayramov sülh sazişi ilə bağlı anons verdi

*Ermənistan ilə davamlı sülh sazişinin imzalanması üçün işlər aparılır. Bir neçə gün bundan əvvəl Azərbaycan sülh sazişi ilə bağlı son layihəni Ermənistana təqdim edib. "Unikal" xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Tbilisidə gürcü həmkarı İlya Darçiaşvili ilə görüşdən sonra keçirilən brifinqdə deyib. O bildirib ki, Ermənistan konstitusiyasında hələ də Azərbaycana ərazi iddiası ilə bağlı bənd var. Bu da sülh üçün ən böyük əngəllərdən biridir. Biz bu istiqamətdə Ermənistandan adekvat addımlar atmağı gözləyirik. "Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində müsbət irəliləyişlər əldə edilib. Sərhədlərin delimitasiyası üzrə komissiyalar arasında da təmasla*

Səh.5

## "Bu addım inflyasiyanı ciddi şəkildə yüksəldə bilər"



*REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, "Aİ-92" markalı benzinin və dizelin bahalaşma ehtimalından, bu artımın olacağı təqdirdə ərzaq məhsullarının qiymətinin necə dəyişəcəyindən, son günlər müşahidə olunan intensiv yağıntıların kənd təsərrüfatına necə təsir...*

Səh.4

## Mərkəzi Seçki Komissiyasının iclası keçirildi



*Məzahir Pənahovun sədrliyi ilə iyunun 27-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. "Unikal" xəbər verir ki, əvvəlcə MSK-nın 2024-cü il mayın 27-də keçirilən tarixli iclas protokolu təsdiq edilib. Sonra "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" 2023-cü il 5 dekabr...*

Səh.2

## Sadıq Sadıqovun indi də yağışla imtahanı...



*Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) növbəti dəfə cəmiyyətdə və mediada tənqid hədəfinə çevrilib. Buna səbəb bir neçə gün öncə paytaxt Bakının Yasamal rayonu ərazisində MİDA tərəfindən inşa olunan şəhərciyin elə də güclü olmayan yağışın ardınca sulara qərq olmasıdır.*

Səh.6

21_27 IYUl-QARA.qxd 6/27/2024 11:46 PM Page 2



# "Şəbnəm, Vəfa və Orxana Heydər Əliyev Sarayında konsertə icazə verilməyib"



***Müğənnilər Şəbnəm Tovuzlu, Vəfa Şərifova və meyxanaçı Orxan Lökbatanlının Heydər Əliyev Sarayında konsertinə icazə verilməyib.***

Axşam.az xəbər verir ki, bunu aparıcı-prodüser Tarix Əliyev "Xəbərin var?" verilişində deyib. O bildirib ki, ifa etdirkləri mahnılara görə, onların sarayın səhnəsinə çıxmasına qadağa qoyulub. Tolik Vəfa Şərifovanın sözügedən məkanda konsert vermək istədiyini, ancaq "yox" cavabı aldığını söyləyib:

"Bir neçə ay bundan əvvəl Vəfa Şərifova Heydər Əliyev Sarayında konsert vermək istəyirdi. Mənə dedi ki, istəyirəm, təşkilatçısı olasan. Sarayın direktoru İlham Qasımov danışdım, dedi ki, burada qadağa deyilən bir şey yoxdur. Amma sarayın əzəməti var. İlham müəllim dedi ki, Vəfanın repertuarında burada səslənəcək neçə mahnı var? Mən dedim ki, bilmirəm. Dedi ki, onda gərək, bütün repertuar dəyişilsin, bura uyğun olsun. Nəinki Vəfaya, ora Şəbnəm Tovuzlu da daxildir. O da istəyib, maraqlanıb, icazə verməyiblər. Bu, janrdakı, kateqoriyadakı müğənnilərin Heydər Əliyev Sarayında konserti mümkün deyil. Bu, pulla tənzimlənmir. Onlar gərək, müəyyən mərhələlərdən keçsinlər, Yaşıl Teatrda konsert versinlər. Bildiyim qədəri ilə Damla və Şəbnəm orada səhnə alıb.

Məsələn, Orxan Lökbatanlı dedi ki, Heydər Əliyev Sarayında konsert vermək istədim, dedilər, repertuarın o deyil. Amma Namiq Qaraçuxurlu, Talıb Tale orada konsert verib. "Maşın şou"dan sonra Talıb Tale orada səhnə alıb. Onda bəzi istisnalar olub. Deyiblər ki, 10 dənə öz mahnını oxu. Öz mahnılarından az oxuyub. Həmin dövrdəki rəhbərlik istisna edib".

# Müşviq məhkəməni uduzdu, bu qədər təzminat ödəyəcək



***Xəbər verdiyimiz kimi, tanınmış film istehsalçısı "Cinemazadeh" aktyor Müşviq Şahverdiyevi məhkəməyə verib.***

"Unikal" xəbər verir ki, axşam.az-ın əldə etdiyi məlumata görə, tərəflər arasındakı məhkəmə prosesi başa çatıb. Müşviq hər iki məhkəməni uduzub. Qərara əsasən o, qarşı tərəfə 26 min manat təzminat ödəyəcək. Tanınmış film istehsalçısı "Cinemazadeh"in direktoru Cəfər Axundzadə də M.Şahverdiyevi onu təhqir etdiyi üçün məhkəməyə verib. Məsələ ilə bağlı Axşam.az-a açıqlama verən C.Axundzadə bunları söyləyib: "Mənim haqqımda qeyri-etik ifadələr işlətmişdi. Buna görə də cinayət işi açılmışdı. Məhkəmə məni haqlı çıxartdı. Bunun üçün Müşfiq böyük məbləğ ödəməyəcək. Sadəcə, məhkəmə xərclərini və cüzi məbləğ ödəməlidir. Mən heç bir təzminat tələb etməmişəm. Guya, mən Müşviqin həbs olunmasını istəyirəm? Müşfiq mənim yanımda başqa söz danışır, gəlib üzr istəyir. Məhkəmədə deyir elə ifadələr işlətməmişəm. Amma kənarda başqa sözlər deyir".

C.Axundzadə əlavə edib ki, digər məhkəmə isə şirkətlə aktyor arasında olub. Buna görə isə aktyor şirkətə 26 min manat təzminat ödəməlidir.

Qeyd edək ki, tərəflər arasındakı qalmaqala səbəb şirkətin M.Şahverdiyevi filmə çəkmək istəməsi, amma sonradan bunun baş tutmaması olub.

Müşviq bildirib ki, sözügedən şirkət 3 film üçün ona 25 min manat avans ödəyib: "3 film üçün 3 il əvvəl 2019-cu ildə avans ödəyiblər. Deyiblər ki, bu yay, qış heç bir filmə çəkilmə, film çəkiləcək. Filmin ssenarisi, komandası yox, gəlib məndən avans tələb edirlər. Hansı filmdir ki, mən çəkilişə getməmişəm? Yalandan, tutar qatıq, tutmaz ayran edib. Müşviq aldığı avansa görə, nə qədər işdən olub. Üç filmdən heç birinin yarısı çəkilməyib. 25 min manat ödəniş ediblər. Başqa layihələrdə yer almağıma icazə verməyiblər. Qarşı tərəf şərtlərə əməl etməyib. Mən onları məhkəməyə verməkdən, onlar məni verib. İndi məndən 90 min manat təzminat tələb edir ki, gəlməmisən, ziyana salmısan".

Aktyor daha sonra C.Axundazədinin ünvanına qeyri-etik ifadələr işlədərək "Hazırda şirkətə rəhbərlik edən Cəfər Axundzadə psixi problemləri olan şəxsdir, hansıki mən onu daha yaxşı tanıyıram. Bu adam gecə yatmayan, narkotik istifadə edən, min bir işlə məşğul olan insandır. Yəni onu normal adam kimi qəbul etmirik. Nəinki mən, film setində olanların hamısı onu yaxşı tanıyır" açıqlamasını verib.



## Ruhi Əliyevanın adından növbəti dəfə dələduzluq edildi

***İş xanımı Ruhi Əliyevaya qarşı növbəti dəfə dələduzluq edilib.***

Onun adından saxta profil açılıb və insanlardan pul istənilib. "Adıma açılan, oyun keçirilən, sizdən şəxsi kart məlumatlarınızı istəyən heç bir səhifəyə inanmayın, etibar etməyin. Heç bir sosial şəbəkə hesabında bu tip oyun keçirtmirəm" deyə, R.Əliyeva paylaşımında yazıb.

Qeyd edək ki, bundan əvvəl də dəfələrlə iş xanımının adından saxta profillər açılıb və pul istənilib.

## "Ərim gəzmir" deyən qadın özünü aldadır"

***"İnsanlığıma görə əziyyət çəkirəm. Bir adamı ilk dəfə görəndə elə bilirəm ki, on ildir onu tanıyıram. Elə bilirəm özüm kimidir. Hər zaman insanlardan özüm kimi olmağı tələb edirəm. Amma bundan əziyyət çəkirəm. İndiki zamanda nankorlar çoxdur".***



Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Gövhər Rzayeva "Rəngarəng səhər" proqramında deyib. Qarmon ifaçısı kişinin xəyanətindən danışıb. O bildirib ki, xəyanəti bağışlamaq lazımdır:

"İndiki məqamda pul insanın üzünün ağıdır. Amma insan gərək pula satılmasın. Hamımız pulu çox istəyir. Mən pul qazanan kişinin səhvini bağışlayardım. Tək qadınam, Allahdan başqa pənahım yoxdur. Bir qadın ki, gecə fikirləşir sabah haradan çörək pulu qazanım. Bəzən kişi qazanır, qadın bilmir çörək, işıq, su pulu haradan gəlir. Qadın tək olanda isə hər şeyi özü düşünür. Sevgi kəndara kimidir. Kişini bağışlamaq olar, çünki sənə əziyyət vermir. Kişinin Allah gözünü əvvəldən şor edib. Gözəl xanım görəndə mən qadınlığımla baxıram. Bu, kişi nə etsin? Kişi fəhlə, qadın bənna olar. Bəzən kişi qazanır gətirir, ortada heç nə olmur. İlan yolunu əyri gedir. Hara getsə, evinə qayıdacaq. O qadın ki, deyir ərim gəzmir, özünü aldadır.".

21_27 IYUl-QARA.qxd 6/27/2024 11:47 PM Page 3





## "Bütün problemlər ibtidai təhsildə baş verir" - Emin Əmrullayev

***"İbtidai təhsilin islahatını uğurla sona çatdırmalıyıq. Yəqin ki, hələ bir neçə il lazımdır".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev "Sertifikatlaşdırma 2024: peşəkar müəllim - keyfiyyətli təhsil" adlı tədbirdə deyib. "Görünən odur ki, bütün problemlər ibtidai təhsildə baş verir", - deyə nazir bildirib.

Astara rayonunda hər üç müəllimdən biri ilə sağollaşmaq məcburiyyətində olacağıq. Nazir bildirib ki, həmin rayon üzrə zəif nəticə çoxdur.

Müəllimlərin işə qəbulu (MİQ) imtahanlarından keçənlərin orta sertifikatlaşdırma balı 52, MİQ-də iştirak etməyənlərin orta balı isə 43-dür.Nazir qeyd edib ki, əvvəlki dövrdə MİQ və yerdəyişmə imtahanlarında iştirak edib 30 və daha çox bal toplayanların sertifikatlaşdırma nəticələri əhəmiyyətli dərəcədə yüksək olub (keçid faizi - 99%). Belə ki, hər iki nəticə arasında yüksək sayıla biləcək əlaqə mövcuddur (70% korrelyasiya). Sertifikatlaşdırmada bu qrup üzrə nəticə orta hesabla 52 bal təşkil edib.

"Sertifikasiya imtahanlarında riyaziyyat fənninin sualları asan deyildi". Nazir bildirib ki, bəziləri riyaziyyat fənnindən sualların asan olduğunu deyir, lakin asan olsaydı, hamı yüksək bal toplayardı. "Riyaziyyat müəllimlərinin nəticələri müsbətdir. 90 faiz müəllim imtahanı uğurla başa vurub. Onlardan 46 faizi yüksək nəticə qazanıb. Lakin sualların asan olması ilə bağlı fikirlər doğru deyil. Əgər asan olsaydı, 10 faiz kəsilməzdi",- deyə o bildirib

"Sertifikatlaşdırmada yüksək nəticə göstərən müəllimlərin əməkhaqqısı sentyabrdan ehtimal olunur ki, 1295 manat və daha yuxarı olacaq" - deyən nazir bildirib ki, sertifikatlaşdırmada uğur qazanmış heyət üzrə 980 manat, sertifikatlaşdırmada iştirak etməyən müəllimlər isə hələ 750 manat alır.

"Növbəti illərdə o rəqəmlər də artacaq. Bizim hələ də 30 min müəllimiz aşağı maaş alır. Ona görə ki, az saatı var", - deyə nazir bildirib.

## ABŞ Azərbaycanı NATO sammitinə dəvət etməyi planlaşdırır

***Bayden administrasiyası NATO-nun digər tərəfdaşları ilə birlikdə Azərbaycan və Ermənistanı Vaşinqtonda keçiriləcək NATO sammitinin tərəfdaşlıq tədbirlərində iştiraka dəvət etməyi planlaşdırır.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

Qeyd olunub ki, tərəflər orada regional əməkdaşlıq, eləcə də ölkələr arasında sülh sazişinin bağlanması səylərini müzakirə etmək imkanı əldə edəcəklər: "Dəvətlərin artıq göndərilib və/və ya qəbul edilib-edilməməsi tam aydın olmasa da, Vaşinqtondakı rəsmilər iki həftə sonra ABŞ paytaxtında keçiriləcək NATO liderlərinin görüşünün qaçırılmamaq üçün əla fürsət olacağına inanırlar".

***Ağarza Elçinoğlu***

# Səfər Mehdiyev üçün böyük təhlükə

## Sabiq rəisin məhkəmə prosesi keçmiş komitə sədri üçün arzuolunmaz nəticələnə bilər

***Dövlət Gömrük Komitəsinin (DGK) vəzifəli şəxslərinin cinayət işi üzrə məhkəmə istintaqı qurumun keçmiş rəhbəri Səfər Mehdiyev üçün arzuolunmaz prosesə çevrilib.***

Nümunə olaraq "Azərterminalkompleks" Birliyinin Kommersiya şöbəsinin sabiq rəisi, gömrük polkovniki Xosrov Vahabzadənin məhkəməsini göstərmək olar.

Bir müddət əvvəl Qaynarinfo yazıb ki, Xosrov Vahabzadəyə hökm oxunub. Onun məhkəməsində diqqətçəkən məqam isə prosesdə şahid qismində ifadə verən general-mayor Ehtiram Xəlilovun dedikləridir.

Ehtiram Xəlilov "Azərterminalkompleks" Birliyinin direktoru vəzifəsində çalışıb. O, hazırda ev dustaqlığındadır.

General məhkəmədə verdiyi ifadədə bildirib ki, göstərişləri Səfər Mehdiyevdən alıb. "Mənə də Dövlət Gömrük Komitəsinin rəhbərliyi (Həmin vaxt DGK-nın sədri general-polkovnik Səfər Mehdiyev olub-red.) göstəriş verdi. Mən də rəhbərliyin göstərişini təqsirləndirilən şəxsə çatdıraraq həmin kremlərin kimə satılmalı olduğunu bildirdim. Bundan sonra bütün məsələlərlə təqsirləndirilən şəxs özü məşğul olub", - deyə o bildirib.

Ehtiram Xəlilov bu ifadəsi ilə faktiki olaraq baş verənlərə görə Səfər Mehdiyevin də məsuliyyət daşıdığına eyham edib.

Bu tip ifadələr qarşıda Səfər Mehdiyevin mühakimə oluna biləcəyi barədə ehtimalları artırır. Yeri gəlmişkən, DGK-nın vəzifəli şəxslərinin həbs olunduğu ilk günlərdə Səfər Mehdiyevin də oxşar aqibətlə üzləşəcəyi barədə iddialar səsləndirilirdi. Məhkəmə prosesində onun əleyhinə ifadələr verilməsi bu iddiaların reallığa çevriləbiləcəyini düşünməyə əsas verir.

Xatırladaq ki, hazırda 51 yaşı olan S.Mehdiyev 2018-2022-ci illərdə DGK-yə rəhbərlik edib.

İki il öncə onun vəzifədən azad edilməsi müxtəlif ehtimalların səslənməsinə səbəb olmuşdu.

Bəzi KİV-lər yazırdılar ki, Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat nəticəsində DGK-nin yüksək vəzifəli şəxslərinin həbsinin ardınca Səfər Mehdiyevin də işdən çıxarılması onun üçün yaxşı heç nə vəd etmir. Adətən, hər hansı rəsmi qurumda DTX-nın əməliyyat aparması o qurumun rəhbərinin dərhal işdən azad edilməsi ilə müşayiət edilməyib. Buna misal olaraq Mədəniyyət Nazirliyini və ya Xarici İşlər Nazirliyini göstərmək mümkündür. Hər iki nazirlikdə genişmiqyaslı əməliyyat keçirmiş, nazirliklərin rüşvət və korrupsiya ilə məşğul olan əsas simalarını həbs etmişdi. Ancaq onların həbsi nazirlərin vəzifədən dərhal azad edilməsinə səbəb olmamışdı və rəhbər dəyişikliyi istintaqın tam başa çatmasından sonra həyata keçirilmişdi. Bu dəfə isə DTX-nin yaydığı məlumatın dərhal ardından, həm də şənbə günü qurumun rəhbərinin vəzifədən azad edilməsi müxtəlif ehtimallara yol açmışdı.

Axar.az həmin günlərdə yazırdı ki, son həbslərdən təxminən 25 gün öncə DTX-nin Gömrük Komitəsində əməliyyat keçirdiyi və yüksək vəzifəli şəxsləri həbs etdiyi barədə məlumat yayılmış, daha sonar isə onların məhkəmə yolu ilə istintaq müddətində 3-4 aylıq həbs olunduqları təsdiqlənmişdi. Həmin zaman ənənəvi olaraq geniş rəsmi açıqlamanın yayılacağı gözlənilsə də, bu, baş vermədi.

2022-ci il iyulun 15-də DTX-nin yaydığı məlumatdan isə bəlli olurdu ki, cinayət işinə iyunun 10-da başlanılıb, yəni 35 gün öncə. Motiv - Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin pozulması ilə müşayiət olunan, vətəndaşların hüquqlarına, dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, dövlət orqanlarının fəaliyyətinə kölgə salan qanunsuz əməllərə yol verilməsinə dair daxil olmuş məlumatlardır və DTX bununla bağlı kompleks əməliyyat-istintaq tədbirləri həyata keçirib.

Belə anlaşılır ki, kompleks tədbirlər davam etdiyi üçün iyunda rəsmi açıqlama yayılmayıb.

Dövlət Gömrük Komitəsi yanında "Azərterminalkompleks" birliyinin direktoru Ehtiram Xəlilov barəsində məhkəmənin həbs qərarı 22 iyunda, Dövlət Gömrük Komitəsinin Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin rəis müavini Rəşad Babayev və Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsinin Yol vergiləri və icazə blanklarına nəzarət şöbəsinin rəisi Şükür Səfərov barəsində 1 iyulda, Əməliyyat-istintaq Baş İdarəsinin rəisi Məsum Rəsulov barəsində isə 14 iyulda verilir.

M.Rəsulovun həbs səbəblərindən biri "Azərterminalkompleks" Birliyində saxlanılan müxtəlif adda siqaret məhsullarını qanunsuz olaraq ordan çıxartmasıdır. "Azərterminalkompleks" birliyinin direktoru Ehtiram Xəlilovdur ki, bu şəxs 20 iyunda saxlanılmış, 22 iyunda barəsində həbs qərarı olmuşdu.



Belə görünür ki, M.Rəsulovun əməlləri barədə əməliyyatı həyata keçirən qurumda hələ 2022-ci ilin iyunundan siqnallar olub. Birlik direktoru müsadirə edilən və dövlətin mülkiyyətinə keçən malların hərracda satılması zamanı ciddi qanunsuzluq edib - qəsdən qiymətlər çox aşağı qoyulub və əvvəlcədən razılaşdırılmış şəxslərə satılıb. Yəni hərrac deyil, tamaşa qurulub - əvvəlcədən külli miqdarda pul alıb, dövlətin mülkiyyətinə keçən əmlakı "su qiymətinə" satıblar: dövlətə ziyan dəyib, əvəzində özləri külli miqdarda qazanc əldə ediblər.

M.Rəsulov da ciddi yeyintiləri "Azərterminalkompleks" birliyinin əli ilə həyata keçirib. Ancaq onun həbsi 25 gündən sonra, 14 iyulda reallaşıb.

Media yazırdı ki, görünür, bu gecikmənin səbəbi kimi Səfər Mehdiyevin sinif yoldaşı olan M.Rəsulovla bağlı qeyri-səhih informasiyalar verdiyi ehtimalını bölüşmək lazım gəlir.

"Səfər Mehdiyevin həbs ediləbiləcəyi haqda ehtimalları bölüşmək üçün isə "şübhələri əsaslandıran arqumentlər" azdır, amma etibardan sui-istifadə olduqca ciddi arqumentdir" KİV qeyd edirdi. İndi aradan 2 il keçdikdən sonra X.Vahabzadənin məhkəmə prosesində E.Xəlilovun DGK-nin sabiq sədrini günahlandırması, onun məsuliyyətinə açıq eyham vurması 2022-ci ildən başlayan prosesin keçmiş komitə sədri üçün arzuolunmaz nəticələnə biləcəyi ehtimalını yenidən gündəmə gətirib. Üstəlik, yalnız gündəmə gətirməyib, hətta bir az da qüvvətləndirib. Bu ehtimalın reallaşmasını isə zaman göstərəcək, odur ki, bir az da gözləmək lazımdır.

***Sənan Mirzə***

21_27 IYUl-QARA.qxd 6/27/2024 11:50 PM Page 4



# Azərbaycandan Ermənistana xəbərdarlıq: "Revanşizm xülyalarından əl çəkin, yoxsa..."

***Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan son açıqlamaları yeni polemikaya səbəb olub. Belə ki, indi də Ermənistan tərəfi Azərbaycanla yanaşı, Rusiyanın anti-Ermənistan siyasətindən də narazılıqlarını bildirirlər. "Rusiya gəlib Qarabağı bizim əlimizdən alıb Azərbaycana qaytardı. Bu, Rusiyadan tamamilə asılı olduğumuz vaxt baş verdi. Bu reallıqdı. Rusiya aldı, mən bunu təsdiq edirəm. Rusiyanın icazəsi olmasaydı, bu müharibə baş verməzdi", - deyə Təhlükəsizlik Şurasının katibi bildirib. Görünən odur ki, Vətən müharibəsindən və ötənilki antiterror tədbirindən sonra Ermənistan rəsmilərinin həqiqətləri təhrif edən və bir-biri ilə daban-dabana zidd olan bəyanatları getdikcə bu qənaəti möhkəmləndirir ki, Ermənistan rəhbərliyi sözdə sülhdən danışsa da, sülhdən yayınma mesajları ilə ona mane olur.***

Rəsmi Bakı Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanının "nala-mıxa vurmaq" xarakterli çıxışına arqumentli cavab verib. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Ermənistan Təhlükəsizlik Şurasının katibi Qarabağın Rusiya tərəfindən Azərbaycana verildiyini iddia etmişdir. Bu revanşizmin təzahürüdür, yoxsa bunu necə şərh edərdiniz" sualına cavab verərkən bildirib ki, Ermənistan Təhlükəsizlik Şurasının katibinin bu açıqlaması əvvəlki və indiki Ermənistan siyasi-hərbi rəhbərliyinin məğlubiyyətini ört-basdır etmək, günahı başqasının üzərinə yıxmaq və özünə bəraət qazanmaq cəhdindən başqa bir şey deyildir.

O qeyd edib ki, Azərbaycan Ordusu döyüş meydanında öz sözünü deyərək, şəhid verərək Ermənistan ordusunu 44 günlük Vətən müharibəsində məğlub etmiş, mütləq hərbi qələbə qazanmış, Ermənistanın 30 il davam edən hərbi işğalına son qoymuş və Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur edib: "Ermənistan rəhbərliyi ordu sıralarında 10 min nəfərdən artıq fərarinin olduğunu özü etiraf etmişdir. 2023-cü ilin senyabrında həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində 23 saatdan az bir müddətdə Azərbaycan ərazisində qeyri-qanuni qalmaqda davam edən Ermənistan ordusunun qalıqları tərksilah edilmiş və Qarabağ tam azad edilmişdir. Ümumən Ermənistan ordusunun 5 milyard ABŞ dollarından artıq dəyəri olan silah və sursatı məhv edilmiş və ya qənimət götürülmüşdür. Həm 44 günlük Vətən müharibəsi, həm də anti-terror əməliyyatı bir çox dünya ölkələrinin hərbi akademiyalarında unikal hərbi əməliyyatlar olaraq öyrənilir. Təəssüflə qeyd etmək istərdik ki, bu kimi açıqlamalar Ermənistanın siyasi-hərbi rəhbərliyinin təfəkküründə hələ də revanşizm xülyalarının qalmasının təzahürüdür. Ermənistanın siyasi-hərbi rəhbərliyində olan şəxslərə tarixi səhvləri yenidən təkrarlamamaq üçün revizionizm və revanşizm xülyalarından tamamilə əl çəkməyi, militarizasiya siyasətinə son qoymağı tövsiyə edirik".



Politoloq Elxan Şahinoğlu isə bildirib ki, bunlar hələ də müharibədə məğlubiyyətlərinin günahını başqa yerlərdə axtarırlar. Onun sözlərinə görə, işğala və Azərbaycan torpaqlarında separatizmə son qoyulub, sadə məntiq budur: "Bəs Qriqoryan niyə onu demir ki, Rusiya İkinci Qarabağ müharibəsinin gedişində belə Ermənistana silah və hərbi texnika təhcizatını dayandırmırdı, daşınma Mərkəzi Asiyanın hava sahəsi üzərindən və İrandan quru yolla həyata keçirilirdi. Ermənistan müharibə dövründə şəhərlərimizi, o cümlədən Tərtəri, Bərdəni, Gəncəni və Mingəçeviri Rusiyadan aldığı raketlərlə vurur, mülki insanlarımızı öldürürdü. Rusiya bizi dayandırmasaydı, Xankəndini 2023-cü ilin sentyabrında deyil, 2020-ci ilin noyabrında azad edərdik. Qriqoryanın məntiqinə görə, Rusiya hərbçiləri Qarabağda yerləşdikdən sonra separatçıları qorumalı idilər. Əslində, Rusiya hərbi kontingenti Qarabağda olduğu müddətdə separatçılara kifayət qədər dəstək verdi, onların hərbi nəqliyyat vasitələrini müşayiət edirdi, Ermənistandan hələ azad olunmayan Laçın yolu üzərindən silah və sursat daşınmasına və torpaqlarımızda minaların döşənməsinə şərait yaradırdı. O başqa məsələ ki, Rusiya ötən ilin sentyabr ayında Azərbaycan ordusunun anti-terror əməliyyatına mane olmadı. Mane ola da bilməzdi, ərazi bütövlüyümüzü təmin etməli, yarımçıq qalan işi yekunlaşdırmalıydıq. İndi Ermənistan hakimiyyətinin Kremllə münasibətləri pozulub deyə, bütün günahları Rusiyanın boynuna yükləmək istəyirlər. Unudurlar ki, torpaqlarımızı bu gün quruluşunun 106-cı ilini qeyd etdiyimiz ordumuz azad edib! Heç kim Qarabağı və Şərqi Zəngəzuru bizə nimçədə verməyib. Yaxşı olardı ki, Azərbaycan Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyi bir açıqlama ilə bunu Ermənistan Təhlükəsizlik Şurasının katibinin və digər erməni rəsmilərin diqqətinə çatdırardı".

Politoloq başqa bir məqama da diqqət çəkib. O deyib ki, Rusiya rəsmiləri Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Qarabağın itirilməsinə görə Moskvanı günahlandırmasına qəribə cavablar veriblər: "Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə deyib ki, Armen Qriqoryan öz əraziləri (?!) uğrunda savaşan və canlarını verən erməniləri aşağılayıb. Mariya Zaxarova guya Qriqoryanı hədəf alıb, ancaq əslində Azərbaycanın ərazi bütövlüyü əleyhinə fikirlər söyləyib. Onun sonrakı cümləsi də bundan xəbər verir: "Ermənilər bilirdilər ki, niyə döyüşə gedirlər, nə üçün öz rifahlarını qurban verirlər, arvadlarını, uşaqlarını dulluğa, yetimliyə məhkum edirlər. Onların xatirəsinə necə xəyanət etmək olar?" Zaxarova açıqlamasıyla Azərbaycan torpaqlarını işğal edənlərdən qəhrəman obrazı yaradıb. Rusiyanın Xankəndidə konsulluq xidmətinin açılmasını təklif edən Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Qriqori Karasin də müəmmalı açıqlama verib. Karasin Armen Qriqoryanın açıqlamasının həqiqətə uyğun olmadığını belə izah edib: "Qriqoryan bu məsələ ilə bağlı erməni siyasətçilərinin açıqlamalarıyla tanış olmalıdır. Erməni siyasi xadimlərinin, o cümlədən yüksək rütbəli rəhbərliyin qeydlərinə və çıxışlarına müraciət etmək lazımdır. Bu sualların cavabları orada var. Armen Qriqoryan həmin qeydləri oxusun". Karasin hansı çıxışları və qeydləri nəzərdə tutub? Görünür, Karasin demək istəyib ki, Rusiya Qarabağın işğal altında və separatçıların nəzarəti altında qalması üçün əlindən gələni etməyə çalışıb, ancaq işləri qərbpərəst baş nazir Nikol Paşinyan korlayıb".

***M.İbrahimli***



## Bəzi seçki dairələrinin hüdudlarına dəyişiklik edildi

***Azərbaycanda bəzi seçki dairələrinin hüdudlarına dəyişiklik edilir.***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov deyib. O bildirib ki, Azərbaycanda Ağdərə rayonunun yaradılması barədə qərar qəbul olunub.

"Bununla bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən müvafiq addımlar atılmalıdır. Tərtər, Kəlbəcər və Ağdam rayonları ərazisində qismən dəyişiklik edilməklə, Ağdərə rayonu yaradılıb. Bununla bağlı olaraq seçki dairələrinin hüdudlarına dəyişiklik edilməsi zərurəti yaranıb".

R.Qasımov qeyd edib ki, MSK təmsilçilik baxımından bütün rayonların Azərbaycan Respublikası Milli Məclisində təmsil olunması üçün müəyyən uyğunlaşdırmalar aparmalıdır.

"Belə ki, 96 saylı Goranboy, 97 saylı Tərtər-Naftalan-Goranboy, 118 saylı Ağdam şəhər, 119 saylı Ağdam kənd, 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairələrinin hüdudlarında və adında qismən dəyişiklik edilməlidir".

## Dövlət qulluğuna test imtahanına qeydiyyat elan edildi

***Dövlət İmtahan Mərkəzi (DİM) iyulun 28-də inzibati dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun vəzifələr üzrə test imtahanı keçirəcək.***



DİM-dən "Unikal"a bildirilib ki, imtahan verəcək namizədlərin qeydiyyatı 27 iyun saat 14:30-dan 18 iyul saat 11:00-dək aparılacaq.

İmtahan kompüterlər vasitəsilə keçiriləcək.

İmtahan vermək istəyən namizədlərin DİM-in portalında "Şəxsi kabinet"i olmalıdır. Kabinet yaradılan zaman pul hesabı açılır. İmtahanlarda iştirak üçün ödəniş tarifləri və üsulları barədə məlumat DİM-in saytında yerləşdirilib.

"Şəxsi kabinet" yaradıldıqdan və hesaba lazımi vəsait daxil edildikdən sonra imtahanlarda iştirak etmək üçün DİM-in internet portalında qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçən və imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılmır.

# Ceyhun Bayramov Gürcüstanın Baş naziri ilə görüşdü



***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Gürcüstana rəsmi səfəri çərçivəsində Baş nazir İrakli Kobaxidze ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyi "X" səhifəsində paylaşım edib.

Bildirilib ki, tərəflər iki ölkə arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və bir çox strateji əhəmiyyətli sahələrdə əməkdaşlığın daha da genişləndirilməsini müzakirə ediblər.

Həmçinin, Azərbaycanın COP29-a sədrliyi çərçivəsində tərəfdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# Müdafiə naziri Macarıstana getdi



***Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Macarıstana rəsmi səfər edib.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, səfər çərçivəsində general-polkovnik Z.Həsənovun Budapeşt şəhərində Macarıstan Respublikasının hərbi və siyasi rəhbərliyi ilə bir sıra görüşləri, eləcə də müdafiə sənayesi şirkətlərini ziyarəti planlaşdırılır.

Müdafiə nazirinin rəsmi səfəri iyunun 29-dək davam edəcək.

# Bu müəllimlər direkor seçilə bilər

***Növbəti mərhələdə direktorların və direktor müavinlərinin attestasiyasında iştirak etməyi vacib hesab edirik.***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev deyib.

O bildirib ki, məktəb direktorlarının yüksək nəticə əldə etmiş müəllimlər arasından seçilməsini vacib hesab edir:

"Çünki öz fənnini bilməyən şəxs məktəbə direktor olanda, məncə, bu, heç kimi sevindirməz. Bu o demək deyil ki, biz dərhal yüksək nəticə göstərənləri direktor təyin edəcəyik. Sadəcə olaraq, müəllimlər arasından sertifikatlaşdırmada yüksək nəticələr əldə edənlər direktor seçiləcək".

**ELAN**

Daşkəsən rayon, İsmət Qayıbov küç. ev 31, mən9 ünvanında yaşayan Məmmədli Etibar Tahir oğluna Daşkəsən şəhər İ.Nəsimi adına 1№-li tam orta məktəb tərəfindən verilən 2015-ci il tarixli, №482260 saylı atestat itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

## "Hələ də kimsə hay-küy salar deyə qiymət yazan müəllimlər var" - Nazir

***"Hər bir müəllimi narahat etməlidir ki, qonşu otaqda işləyən adam nə qədər bu adı doğruldur. O adı aşağı salanda, sizin də nüfuzunuz aşağı düşür".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev "Sertifikatlaşdırma 2024: peşəkar müəllim - keyfiyyətli təhsil" adlı tədbirdə deyib. Nazir bildirib ki, müəllim nüfuzunun keşiyində duranlar ilk növbədə müəllimlər olmalıdır: "Hələ də kimsə hay-küy salar deyə qiymət yazan, diplom verən müəllimlər var. Bu, səhvdir. Qiymət yazmaq müəllimin əsas silahıdır. Onu necə gəldi istifadə etmək olmaz".

# Mərkəzi Seçki Komissiyasının iclası keçirildi

***Məzahir Pənahovun sədrliyi ilə iyunun 27-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.***

"Unikal" xəbər verir ki, əvvəlcə MSK-nın 2024-cü il mayın 27-də keçirilən tarixli iclas protokolu təsdiq edilib.

Sonra "Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında" 2023-cü il 5 dekabr tarixli Qanunla əlaqədar olaraq bəzi seçki dairələrinin hüdudlarında dəyişiklik edilməsi məsələsinə baxılıb.

Komissiya sözügedən Qanunu və Seçki Məcəlləsinin tələblərini əsas götürərək, habelə yerli və digər şərait nəzərə alınmaqla seçicilər üçün



maksimum əlverişli şərait yaradılmasının zəruriliyini diqqətdə saxlayaraq 96 saylı Goranboy, 97 saylı Tərtər-Naftalan-Goranboy, 118 saylı Ağdam şəhər, 119 saylı Ağdam kənd və 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairələrinin hüdudlarında və adlarında qismən dəyişikliklər olunmasına qərar verib. Qərara əsasən, yuxarıda qeyd edilən seçki dairələri müvafiq olaraq 96 saylı Goranboy-Naftalan, 97 saylı Tərtər-Ağdərə-Goranboy, 118 saylı Ağdam-Xocalı, 119 saylı Ağdam və 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi adlandırılır.

İclasda daha sonra MSK-nın normativ xarakterli aktlarına dair məsələyə baxılıb və bir sıra normativ xarakterli aktlar son dövrlər qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılıb.

Xarici qurum və media təmsilçilərinin iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub və cari məsələlərə baxılıb.

# Vüqar Qurbanov xəstələrdən əlavə ödənişlərin tələb edilməsindən danışdı

***Tibbi xidmət müqabilində xəstələrdən əlavə ödənişlərin tələb edilməsi yolverilməzdir və cinayət tərkibi daşıyır.***

"Unikal" xəbər verir ki, bunu TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov qurumun tabeli tibb müəssisələrinin direktorlarının və digər rəhbər şəxslərin, eləcə də TƏBİB-in müavin, müşavir və departament rəhbərlərinin iştirakı ilə keçirilən geniştərkibli müşavirədə deyib.

Onun sözlərinə görə, tibb



müəssisələrində baş vermiş uyğunsuzluqlar ciddi narahatlıq doğurur.

"Müvafiq instansiyalarla birgə və eləcə də daxili nəzarət tədbirləri nəticəsində belə hallarla ciddi mübarizə aparılır və qəti tədbirlərimiz bundan sonra da davam etdiriləcək. Doğum evlərində, cərrahi əməliyyatlar və stasionar xidmət zamanı göstərilən tibbi xidmət müqabilində xəstələrdən əlavə ödənişlərin tələb edilməsi yolverilməzdir və cinayət tərkibi daşıyır" - deyə TƏBİB-in İcraçı direktoru vurğulayıb.

# Bu şəxslər işdən çıxarıla bilməz - Baş Prokurorluqdan xəbərdarlıq

***Baş Prokurorluq əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilər və hallarla bağlı məlumat yayıb.***

"Unikal"ın məlumatına görə, bildirilib ki, qanunvericiliyə əsasən, işəgötürən tərəfindən Əmək Məcəlləninin 70-ci maddəsi ilə (işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin əsasları) müəyyən edilmiş əsaslarla bu şəxslərin əmək müqaviləsinin ləğv edilməsi qadağandır:

- hamilə, habelə üç yaşınadək uşağı olan qadınların, üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərin;

- yeganə qazanc yeri işlədiyi müəssisə olub məktəb yaşınadək uşağını təkbaşına böyüdən işçilərin;

- əmək qabiliyyətini müvəqqəti itirən işçilərin;

- işçinin şəkərli diabetlə və ya dağınıq sklerozla xəstə olması səbəbinə görə;

- həmkarlar ittifaqları təşkilatının və ya hər hansı siyasi partiyanın üzvü olması motivinə görə;

- öhdəsində 18 yaşınadək əlilliyi müəyyən edilmiş və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" ailə üzvü olan işçilərin;

- məzuniyyətdə, ezamiyyətdə olduğu vaxtda, habelə kollektiv danışıqlarda iştirak etdiyi müddət ərzində işçilərin .

Sadalananlar əmək müqaviləsinin müəssisənin ləğv edilməsi və müddətli əmək müqaviləsinə xitam verilməsinə dair qanunla müəyyən edilən hallara aid edilmir.

Bundan başqa, müəssisənin ləğv edilməsi halları istisna olmaqla, müddətindən asılı olmayaraq, reabilitasiya müəssisəsində və digər reabilitasiya subyektlərində müalicə keçən əlilliyi olan şəxslərlə, əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə yol verilmir.

Qeyd olunub ki, Əmək Məcəlləsinin 70-ci maddəsinə əsasən əmək müqaviləsi işəgötürən tərəfindən aşağıdakı əsaslarla ləğv edilə bilər:

a) müəssisə ləğv edildikdə;

b) işçilərin sayı və ya ştatları ixtisar edildikdə;



c) peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə;

ç) işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda;

d) sınaq müddəti ərzində işçi özünü doğrultmadıqda;

e) dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda.

21_27 IYUI-QARA.qxd 6/27/2024 11:50 PM Page 6



# Prezident BMT-nin Ətraf Mühit Proqramının icraçı direktorunu qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersonu qəbul edib.***

"Unikal" xəbər verir ki, İnger Anderson COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Bildirdi ki, ölkəmiz qlobal iqlim dəyişiklikləri məsələsinin müzakirəsi baxımından bütün dünyanın toplaşdığı bir mərkəzə çevriləcək. O vurğuladı ki, Azərbaycanda keçiriləcək COP29 çox vacibdir. Belə ki, burada iqlim dəyişikliyi ilə əlaqədar istər maliyyə, istər şəffaflıq hesabatlarının təqdim olunması və digər parametrlər nöqteyi-nəzərindən çox ciddi və önəmli qərarların qəbul edilməsi gözlənilir.

Azərbaycanın COP29-a ev sahibliyi etməsinin həqiqətən də ölkəmizin iqlim dəyişikliyi məsələsində liderliyinin təcəssümü və nümunəsi olduğunu deyən qonaq "Troyka" mexanizminin yaradılmasını çox vacib bir addım kimi dəyərləndirdi və bu müdrik qərara görə təbriklərini çatdırdı.

İnger Anderson əlavə etdi ki, dünya qazıntı yanacağından yeni yanacaq növünə doğru keçid prosesindədir. O dedi ki, buna görə də neft və qaz ixrac edən ölkələrin tənqid olunması cəhdləri ədalətli deyil və şəxsən bunu ədalətli hesab etmir. Qonaq vurğuladı ki, dünyada hər bir insanın bu cür enerji formasına ehtiyacı var.

Azərbaycanın yaşıl iqlim və yaşıl keçid nöqteyi-nəzərindən qəti siyasi iradə nümayiş etdirdiyini vurğulayan İnger Anderson metan öhdəliyi, dekarbonizasiya, neft və qaz sənayesinin modernləşdirilməsi istiqamətində ölkəmizdə atılan addımların önəmli olduğunu qeyd etdi.

Azərbaycanda milli səviyyədə ətraf mühit istiqamətində həyata keçirilən tədbirləri çox təqdir edərək buna görə təbriklərini çatdıran qonaq xüsusilə rəqəmsal əsaslı və "ağıllı kənd təsərrüfatı" konsepsiyasının inkişaf etdirilməsi, tullantıların idarə edilməsi, ətraf mühitin, Xəzər dənizinin ekoloji mühitinin və biomüxtəlifliyin qorunması və digər istiqamətlərdə ölkəmizdə həyata keçirilən tədbirləri, Azərbaycanda bu ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək qiymətləndirdi.

İnger Anderson ölkəmizə səfəri çərçivəsində ətraf mühit sahəsində fəaliyyət göstərən gənclər təşkilatı - IDEA-nın ətraf mühit könüllüləri və gəncləri ilə görüşdüyünü, Şirvan milli qoruğunda olduğunu məmnunluqla qeyd etdi.

Rəhbərlik etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsini bildirən qonaq 2026-cı il iyunun 5-də Dünya Ətraf Mühit Günü münasibətilə UNEP-in xətti ilə Azərbaycanda Dünya Ətraf Mühit Gününün keçiriləcəyini və bunun da qlobal miqyasda ətraf mühit baxımından ən vacib tədbirlərdən biri olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlıq edən Prezident İlham Əliyev UNEP ilə Azərbaycan arasında əməkdaşlıqdan, İnger Andersonun regionlarımıza səfər edərək oradakı ekomühitlə tanış olmasından və gənclərlə görüşündən məmnunluğunu bildirdi.

Azərbaycanın neft və qaz ixrac edən ölkə olmasına baxmayaraq, yaşıl enerjiyə keçid sahəsində planlarına toxunan dövlətimizin başçısı dedi ki, bu, siyasi iradəmizin olduğunu göstərir.

Prezident İlham Əliyev 200-ə yaxın dövlətin Azərbaycanın COP29-a sədrliyini yekdilliklə dəstəkləməsini ölkəmizə olan etimadın göstəricisi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan COP29-un sədri olaraq dünya ölkələri arasında körpülərin, etimadın və həmrəyliyin qurulmasına öz töhfəsini verəcək.

Prezident İlham Əliyev vurğuladı ki, ölkəmiz Qlobal Cənubu təmsil edir və 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri olan və Avropa İttifaqı ölkələri ilə də yaxşı əlaqələrə malik Azərbaycan Qlobal Cənubla Qlobal Şimal arasında da iqlim dəyişikliyi mövzusunda həmrəyliyin gücləndirilməsi prosesinə öz töhfəsini verəcək.



Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz kiçik ada dövlətlərinin problemlərini prioritet istiqamətlərdən biri kimi müəyyən edib və "Troyka" çərçivəsində digər həmkarlarla bu məsələ ilə bağlı da yaxından işləyir.

Azərbaycanın özünün də iqlim dəyişikliyi problemlərindən əziyyət çəkdiyini deyən Prezident İlham Əliyev qeyd etdi ki, bir dövrdə Azərbaycanda quraqlıq halları, yağıntının miqdarının azalması baş verirdisə, son dövrlərdə yağıntının miqdarının artdığı müşahidə olunmaqdadır.

Söhbət zamanı tullantıların idarə olunması, Xəzər dənizinin ətraf mühit məsələləri, onun suyunun azalması və bu istiqamətdə daha sistemli işin, həmçinin əməkdaşlığın həyata keçirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Birinci Qarabağ müharibəsi şəhidi Göygöldə dəfn edildi

***Birinci Qarabağ müharibəsində itkin düşmüş, 32 il sonra dəfn yeri və kimliyi müəyyən edilən şəhid Zeynalov Ucar Fidail oğlunun qalıqları Göygöldə dəfn olunub. Şəhid Ucar Zeynalovun qalıqları bu gün Göygöl rayonun Pənahıllar kəndində ailəsinə təhvil verilib.***

"Unikal" xəbər verir ki, şəhidlə yaşadığı evdə vida mərsimi keçirilib. Daha sonra şəhidin qalıqları kənd qəbirstanlığında torpağa tapşırılıb. Dəfn mərasimində Göygöl rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev, hüquq-mühafizə orqanlarının rəhbərliyi, şəhid ailələri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri iştrak edib.

Qeyd edək ki, Zeynalov Ucar Fidail oğlu I Qarabağ müharibəsində 19 iyul 1992-ci il tarixdə Ağdərə rayonunun Aterk kəndində gedən döyüşlərdə həlak olmuş və itkin düşüb. Ucar Zeynalovun meyiti tanınmadığı üçün Bakı şəhərində I Şəhidlər Xiyabanında dəfn edilib. 2024-cü ilin əvvəlində şəhidin meyiti DNK edilərək aşkar olunub.

# "Tələbələrin səsverməsi üçün tədbirlər görməliyik" - Məzahir Pənahov

***Parlament seçkiləri ilə bağlı maarifləndirmə işləri aparmalıyıq, xüsusən də tələbələrin səsverməsi üçün tədbirlər görməliyik, çünki onlar yay tətilinə gedirlər.***

"Unikal" xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MSK-nın bu gün keçirilən iclasında deyib.

O qeyd edib ki, bu dəfə də seçkilərdə tələbələrin səsverməsi ilə bağlı müvafiq addımlar atmalıyıq.

"Tələbələr müxtəlif yerlərə gedə bilərlər. Ona görə də tələbələrin seçkilərdə iştirakını təşkil etməliyik. Bakıda yaşayan tələbələrin vəziyyəti məlumdur, ancaq regionlarda yaşayan tələbələr yəqin ki, valideynlərinin yanına gedəcək. Ona görə də onların hamısın qeydiyyatdan çıxma vəsiqəsi ilə təmin etməliyik ki, onlar harada olurlarsa olsunlar səs verə bilsinlər", - deyə o, əlavə edib.

# Natiq Qasımovun anasına Prezident təqaüdü təyin edilib

***Natiq Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi ilə əlaqədar onun anası Qasımova Dursun Əsgər qızına Prezident təqaüdü təyin edilib.***

"Unikal" xəbər verir ki, Milli Qəhrəmanın anasına elektron sistem üzərindən avtomatik olaraq (proaktiv qaydada) Milli Qəhrəmanların ailələri üçün nəzərdə tutulan aylıq təqaüdün (1800 manat) təyinatı aparılıb.

# "30 müəllim 10 baldan da az toplayıb" - Elm və təhsil naziri

***30 müəllim 10 baldan da az toplayıb.***

"Unikal" xəbər verir ki, bu barədə bu gün elm və təhsil naziri Emin Əmrullayev iştirakı ilə ADA Universitetində "Sertifikatlaşdırma 2024: peşəkar müəllim - keyfiyyətli təhsil" mövzusunda keçirilən tədbirdə məlumat verilib.

"Sertifikatlaşdırma imtahanında iştirak edən ibtidai sinif müəllimlərindən 30 nəfəri 0-9 bal arası nəticə göstərib. 1240 nəfər isə 10-19 arası bal toplayıb", - o əlavə edib.

# Rusiya gəmiləri Bakıya gəldi

***İyunun 27-də Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının "Volqodonsk" kiçik artilleriya və "Anatoli Qujvin" hidroqrafiya hərbi gəmiləri qeyri-rəsmi dostluq səfəri ilə Bakıya gəliblər.***

Müdafiə Nazirliyindən "Unikal"a bildirilib ki, gəmi heyətləri Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin nümayəndələri tərəfindən qarşılanıb.

Gəmi heyətləri üçün səfər çərçivəsində mədəni və tarixi abidələrlə tanışlıq məqsədilə Bakı şəhərində gəzinti təşkil ediləcək, həmçinin hərbi dənizçilərin idman yarışı üzrə yoldaşlıq görüşü keçiriləcək.

Qeyri-rəsmi dostluq səfəri iyunun 30-dək davam edəcək.

21_27 IYUI-QARA.qxd 6/27/2024 11:51 PM Page 7



# MM-in Aparat rəhbərindən növbədənkənar seçkilərlə bağlı açıqlama



***"Milli Məclisin müzakirə olunan qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğu məsələsi ilə bağlı hesab edirik ki, Konstitusiyanın 98-1-ci maddəsi parlamentin bu məsələ ilə bağlı müraciət etmək hüququnu məhdudlaşdırmır. Bu da nəzərə alınmalıdır ki, Milli Məclis qərarında qeyd olunduğu kimi, COP29-a hazırlıq işlərinin görülməsi və həmin tədbirin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər müəyyən məhdudiyyətlərin tətbiq olunması qaçınılmazdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iyunun 27-də keçirilən iclasında çıxışı zamanı deyib.

O bildirib ki, bu baxımdan seçkilərin vaxtından əvvəl keçirilməsi vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakını təmin edəcək. Beləliklə, Konstitusiyasının 56-cı maddəsində təsbit edilmiş vətəndaşların seçki hüququna təminat veriləcək. Bu, eyni zamanda, deputatlığa namizədlərin seçkiqabağı təşviqatı rahat şəkildə aparmalarına imkan yaratmalıdır.

# "Ermənistanın əsas qanununda Azərbaycana qarşı ərazi iddiaları qalır" - Nazir



***Ermənistanla Azərbaycan arasında sülh sazişinin mətni ilə bağlı kifayət qədər əhəmiyyətli proqres var.***

"Unikal" xəbər verir ki, bunu Tbilisidə səfərdə olan xarici işlər naziri Ceyhun Bayramov həmkarı İliya Darçiaşvili ilə birgə mətbuat konfransında deyib.

"Açıq qalan məsələlərin sayı əhəmiyyətli dərəcədə azalıb", - nazir əlavə edib.

Ceyhun Bayramov Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının qaldığını qeyd edib: "Ermənistanın əsas qanununda - konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları qalır. Bu, bizim tərəfimizdən prosesin başa çatdırılmasında ən ciddi əngəl kimi görünür".

Nazir əlavə edib ki, bu, Ermənistanın özü üçün də çox xoşagəlməz hal kimi qəbul edilməlidir. "Bu istiqamətdə müvafiq addımların atılmasını gözləyirik", - nazir deyib.

# General Füzuli Salahov təqaüdə göndərildi



***Vəzifəsi Vətən Müharibəsi Qəhrəmanına həvalə edildi***

Heydər Əliyev adına Hərbi İnstitutun rektoru general-mayor Füzuli Salahov vəzifəsindən azad edilib.

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, general Salahov son yaş həddi ilə bağlı təqaüdə göndərilib.

Əldə etdiyimiz digər məlumata görə, institutun rektoru vəzifəsinin icrası Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanova həvalə edilib.

Polkovnik Mövlanov Vətən müharibəsində şücaət göstərən zabitlərdəndir. Müharibədən sonra Prezident İlham Əliyevin Sərəncamı ilə polkovnik Nizami Mövlanova Vətən Müharibəsi Qəhrəmanı adı verilib. Bundan əlavə, müxtəlif illərdə müdafiə nazirlərinin əmrləri ilə 1-ci, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələri Veteranı" medalları, Azərbaycan Silahlı Qüvvələrinin 10, 90 və 95 illiyi, həmçinin "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilib. Müharibədən bir müddət sonra N.Mövlanov Heydər Əliyev adına Hərbi İnstitutun rəis müavini təyin edilib.

Qeyd edək ki, Heydər Əliyev adına Hərbi İnstitut Heydər Əliyev adına Ali Hərbi Məktəbin hüquqi varisidir. İnstitut Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərir.

# "Bu addım inflyasiyanı ciddi şəkildə yüksəldə bilər"

## Natiq Cəfərli: "Kənd təsərrüfatı məhsullarının istehsalının maya dəyərində dizel yanacağının payı 30 faizdir, qiymət artdıqca təbii ki, ərzaq məhsullarının daşınmasının da qiymətləri qalxacaq"

***REAL Partiyasının icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, "Aİ-92" markalı benzinin və dizelin bahalaşma ehtimalından, bu artımın olacağı təqdirdə ərzaq məhsullarının qiymətinin necə dəyişəcəyindən, son günlər müşahidə olunan intensiv yağıntıların kənd təsərrüfatına necə təsir edəcəyindən danışıb.***

***- Natiq bəy, yaxın vaxtlarda Azərbaycanda "Aİ-92" markalı benzinin və dizelin bahalaşacağı ilə bağlı fikirlər səsləndirilir. Sizcə, qiymət artımı nə qədər ola bilər?***

-Qiymət artımı üçün heç bir əsas yoxdur. Azərbaycan neft ölkəsi olmaqla yanaşı, həm "Aİ-92" markalı benzin, həm də dizel yanacağını istehsal edir. Dünya bazarında da neftin qiyməti qalxmayıb ki, bunu əsas gətirsinlər. Hazırda dünya bazarında neftin qiymətində sabitlik var. İlin əvvəli ilə müqayisədə isə qiymətlər 10 faiz düşüb. Belə bir addım atılacaqsa, yeganə səbəb dövlət büdcəsinə daxilolmalarda ciddi azalmaların olmasıdır. Yəni, bizim xarici ticarətdə müsbət saldo azalır. Neftin qiyməti və həcmində azalma var. Qazın qiymətindəki gözləntilər özünü doğrultmadı. Yəni, biz daha yüksək qiymətlər gözləyirdik. Amma qazın qiymətində ucuzlaşma var. Bu ancaq xərcləri qarşılamaq üçün atılan addım ola bilər. Düşünürəm ki, indiki şəraitdə belə bir addımın atılmasına ehtiyac yoxdur. Çox güman ki, sentyabrın əvvəli parlament seçkiləri olacaq. Seçkilərdən əvvəl belə addımın atılması insanlarda ciddi suallar yaradar. O baxımdan, bunun indi olacağını düşünmürəm. Ola bilər ki, ilin sonuna yaxın artım olsun. Amma Azərbaycanda belə bir situasiya yoxdur ki, qiyməti artırmaq üçün addımlar atılsın. Neftin qiyməti normaldır, ölkəmizdə yerli istehsal var.

***-Bildirilir ki, "Aİ-92" və dizel bir tərəfdən ciddi ekoloji problemlər yaradır, digər tərəfdən isə dünyada geniş vüsət almış elektrik mühərriklərə Azərbaycanda keçidi ləngidir. Qənaət ondan ibarətdir ki, bu qərar vətəndaşların "Aİ-92" və dizellə çalışan mühərrikli avtomobillərdən imtina etməsini və elektrik avtomobillərə keçidini əsaslı şəkildə stimullaşdıracaq. Bu barədə nə deyə bilərsiz?***

-Əgər bunu ekoloji məsələlərlə əlaqələndirmək istəyənlər varsa, bu da ağlabatan deyil. O baxımdan ki, dünyada ekoloji problemləri həll etmək üçün qiymət artımı yolunu tutmurlar. Bunun təşviq yolu var. Azərbaycanda elektrikli və hibrid avtomobilləri təşviq etmək lazımdır ki, insanlar getdikcə daha çox bu nəqliyyat vasitələrinə keçsinlər. Bizdə isə təşviq proqramı son 3 ildə istehsal edilən avtomobillərə aiddir ki, bu da doğru deyil. Son 5-10 ildə istehsal olunan elektrik avtomobili ilə dünən istehsal edilən arasında texnoloji olaraq heç bir fərq yoxdur. Hər ikisi ekologiyaya ziyan vurmur. Nəyə görə burada üç illik məhdudiyyət qoyulub? Bu məhdudiyyət ona gətirib çıxarır ki, yeni elektrik avtomobilləri çox bahadır. Son 3 ildə istehsal olunanları alıb gətirənlərin sayı isə az olur. Burada söhbət ekoloji problemlərin həllinə dəstək verməkdən gedirsə, bunun üçün elektrik və hibrid avtomobillərinə daha çox güzəştlərin tətbiq olunmasına qərar verilməlidir.

***-Əgər qeyd etdiyimiz yanacaqlarda artım olarsa, bu ərzaq qiymətlərinə necə təsir göstərəcək?***

-Bu addım inflyasiyanı ciddi şəkildə yüksəldə bilər. İlk növbədə kənd təsərrüfatına ciddi təsir göstərəcək. Kənd təsərrüfatı məhsullarının istehsalının maya dəyərində dizel yanacağının payı 30 faizdir. Qiymət artdıqca təbii ki, ərzaq məhsullarının daşınmasının da qiymətləri qalxacaq. Daha çox kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətinə təsir göstərəcək. Ət məhsullarının maya dəyərinə ən çox yem qiymətləri təsir göstərir. Yem qiymətlərinə isə dizel yanacağının təsiri var. Belə ki, əkin-biçin işləri dizellə həyata keçirilir. Dizel yanacağı bahalaşacaqsa, ətin qiymətində artım baş verəcək.

***-Son günlər müşahidə olunan intensiv yağıntıların kənd təsərrüfatına necə təsir edəcəyini düşünürsüz?***

-Bu il artıq bunun işarələrini görürük. Belə ki, meyvə keçən ilə nisbətən çox bahadır. Bu sahədə keçən ildə olduğundan yüksək qiymətlər görürük. Dünyanın hər yerində təbii şəraitə görə məhsuldarlığın aşağı düşməsi qiymətləri artırır. Bizdə də bunu meyvə-tərəvəz qiymətlərində müşahidə edirik. Tərəvəzdə daha az, amma meyvənin qiymətində daha çox müşahidə olunur. Məsələn, gilasın qiyməti 7, 10 və 12 manat civarındadır. Ötən il bundan aşağı qiymətə satılırdı.



***-Dünyada neftin qiymətində nisbətən azalma müşahidə olunur. Məlum olduğu kimi, dövlət büdcəsində neftin 1 barelinin orta qiyməti 75 ABŞ dolları müəyyənləşib. Bu azalma büdcəyə təsir göstərə bilər?***

-Bu gün neftin qiyməti süni şəkildə yüksək saxlanılır. OPEC+ təşkilatına daxil olan ölkələr süni formada istehsalı azaldırlar ki, qiymət yuxarı olsun. Bu anlaşma bitdikdən sonra neftin qiyməti indikindən də aşağı olacaq. Bu il üçün problem olacağını düşünmürəm. Neftin Orta qiyməti yenə də 70 dollardan yuxarı olacaq. İlin əvvəlindən orta qiymət 86 dollardır. Gündəlik qiymət dəyişikliyi buna təsir etmir. Bu il orta qiymət 70 dollardan yuxarı olacaq deyə büdcəyə ciddi təsir etməyəcək. Məsələn, ABŞ seçkilərində Trampın qalib gəlməsi, neftin qiymətlərinə ciddi təsir göstərəcək. Trampın komandası indidən neft çıxarılacaq sahələrlə bağlı lisenziyaların verilməsinin asanlaşdırılacağını söyləyir. Bu isə bazarda daha çox neftin olması və qiymətin aşağı düşməsi ilə nəticələnəcək.

***Anar Kəlbiyev***

21_27 IYUI-QARA.qxd 6/27/2024 11:51 PM Page 8



# Adil Kərimli Hacıbala Abutalıbovu "vurdu"

## Sabiq merin zamanında Bakıya hansı dəhşətli ziyanlar dəyib? - İlginc təfərrüatlar...



***Mədəniyyət Nazirliyi iyunun 20-də Bakı şəhərində yerləşən bir sıra tarixi binalarda aparılan təmir-bərpa və abadlıq işləri ilə bağlı açıqlama yayıb.***

Bununla bağlı Axar.az-ın yazdığına görə, açıqlamada uzun illər ərzində müxtəlif müdaxilələrə məruz qalmış fasadların görkəminə qaytarılması, eyni zamanda qopmuş, qırılmış yerlərinin bərpası, kommunikasiya xətlərinin və məişət qurğularının səliqəyə salınması ilə bağlı işlərin həyata keçirildiyi bildirilib.

Diqqətçəkən məqam isə qurumun 2000-ci illərin əvvəllərində ”qəbuledilməz üsullarla” aparılan təmir-bərpa işlərinə toxunması olub: ”Təəssüflə etiraf etmək lazımdır ki, son illər ərzində abidələrimiz məhz istifadəçilər tərəfindən ciddi təsirlərə məruz qalıb - qapı-pəncərə ətrafındakı daş fasadlar rənglənib, balkon və eyvanlar şüşələnib, fasadlarda müxtəlif naqillər və borular çəkilib, birinci mərtəbələrdə fasadlar müasir materiallarla üzlənib, kondisionerlər və reklamlar quraşdırılıb və s. 2000-ci illərin əvvəllərində yuxarıda qeyd olunan qanunsuz əlavələri aradan qaldırmaq üçün fasadların ümumi təmizlənməsi, o cümlədən qəbuledilməz üsullarla, eləcə də bir çox binaların, o cümlədən daş binaların bir rəngə boyanması baş verib. Bəzi hallarda memarlıq abidələrinin nəinki tarixi görkəmi itirilib, tikililərə bərpası mümkün olmayan ziyan dəyib. Məsaməli əhəngdaşının müasir boyalarla rənglənməsi ona gətirib çıxarmışdır ki, bu gün daş örtüklərin müəyyən yerlərdə, xüsusilə abidələrimizə gözəllik yaradan təkrarsız memarlıq detallarının ovulması baş tutub”.

Qeyd edək ki, 2001-2018-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov olub. Həmin dövrdə paytaxtın baş memarı olan Elbəy Qasımzadə də müsahibələrinin birində Bakı şəhərinin icra başçısı təyin olunmuş Hacıbala Abutalıbovla işləyə bilmədiyi üçün vəzifəsindən getdiyini açıqlamışdı: ”Mən 2001-ci ildə vəzifəmi tərk etdim. Daha doğrusu, o vaxt Bakı şəhərinin icra başçısı təyin olunmuş Hacıbala Abutalıbovla işləyə bilmədim. O dediklərimi başa düşmürdü. Əvəzində isə mən başa düşdüm ki, bərabər işləmək mümkün deyil və vəzifəmi tərk etdim”.

E.Qasımzadə başqa ilginc məqamlara da toxunmuşdu. Sitat: ”Hacıbala müəllim bir qədər qeyri-standart düşüncəli insan idi. Bir dəfə bir layihə ilə bağlı mübahisəmiz olmuşdu. Mən dedim ki, şəhərin baş memarı olduğum üçün hesab edirəm ki, bu layihə bu cür olmalıdır. Hacıbala müəllim də cavab verdi ki, Bakının başçısı da mənəm, memarı da mənəm, hakimi də mənəm. Mən də ona dedim ki, siz çox böyük adamsınız. Bunu deyib döndüm, çıxıb getdim. Bizim necə ayrılmağımızı hamı bilir”.

Görünür, Mədəniyyət Nazirliyi 2000-ci illərin əvvəllərində qəbuledilməz üsullarla paytaxtda tarixi binaların rənglənməsi məsələsinə toxunarkən özünü ”Bakının hakimi” elan edən Hacıbala Abutalıbovun həmin dövrdəki fəaliyyətlərini nəzərdə tutub.

Medianın bu məqama diqqət çəkməsinə baxmayaraq nə Adil Kərimlinin rəhbərlik etdiyi Mədəniyyət Nazirliyindən, nə də məlum açıqlamada bəhs olunan dövrdə Bakı Şəhər İcra Hakimiyyətinə başçılıq edən Hacıbala Abutalıbovdan hər hansı reaksiya gəlməyib.

Yeri gəlmişkən, Abutalıbovun paytaxt meri olduğu dövrdə Bakıdakı tarixi binalarla bağlı zaman-zaman bir çox qalmaqallar ortaya çıxıb. Məsələn, Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş Aparat rəhbəri Rasim Quliyevin cinayət işi üzrə 2021-ci ildə keçirilən məhkəmə proseslərinin birində ilginc bir sənəd diqqət çəkmişdi. Söhbət sabiq mədəniyyət naziri Əbülfəz Qarayevin 2019-cu il may ayının 6-da Baş nazirin müavini Hacıbala Abutalıbova göndərdiyi məktubdan gedir. Həmin məktubda bildirilirdi ki, Dilarə Əliyeva 141 və 145 saylı ünvandakı ikimərtəbəli binalar yerli əhəmiyyətli tarixi abidədir. O da qeyd edilirdi ki, həmin binalar qəzalı vəziyyətdədir, binalarda çatlar əmələ gəlib.

İttiham tərəfinin araşdırması zamanı məlum olmuşdu ki, bundan sonra Hacıbala Abutalıbov həmin binaların tarixi abidələr siyahısından çıxarılması üçün aidiyyəti qurumlara müraciət edib. Aidiyyəti qurumların bəzisi həmin binaların bərpasına külli miqdarda vəsait tələb olunduğunu əsas gətirərək, onların tarixi abidələrin siyahısından çıxarılmasına etiraz etməyib!

Hansısa maraqlar naminə tarixi abidələri qurban seçmək Abutalıbovun mer (elə Əbülfəs Qarayevin də nazir!) olduğu illərdə nə yazıq ki, adi hal almışdı. Bakının keçmişinə bu cür merkantil, mənfəətpərəst mövqedən yanaşmanın cəzasız qalması isə işin başqa bir ürəkağrıdan tərəfidir...

***Sənan Mirzə***

# Ceyhun Bayramov sülh sazişi ilə bağlı anons verdi

## XİN rəhbəri: "Müsbət xəbərlər eşidəcəyik"



***Ermənistan ilə davamlı sülh sazişinin imzalanması üçün işlər aparılır. Bir neçə gün bundan əvvəl Azərbaycan sülh sazişi ilə bağlı son layihəni Ermənistana təqdim edib.***

”Unikal” xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Tbilisidə gürcü həmkarı İlya Darçiaşvili ilə görüşdən sonra keçirilən brifinqdə deyib.

O bildirib ki, Ermənistan konstitusiyasında hələ də Azərbaycana ərazi iddiası ilə bağlı bənd var. Bu da sülh üçün ən böyük əngəllərdən biridir. Biz bu istiqamətdə Ermənistandan adekvat addımlar atmağı gözləyirik.

“Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində müsbət irəliləyişlər əldə edilib. Sərhədlərin delimitasiyası üzrə komissiyalar arasında da təmaslar davam etdirilir və yaxın gələcəkdə müsbət xəbərlər eşidəcəyik”, - deyə nazir əlavə edib.

# Seçkilərlə bağlı qərar verildi

## Konstitusiya Məhkəməsi Plenumu: “Milli Məclisin buraxılması Konstitusiyaya uyğundur”

***İyunun 27-də Azərbaycan Respublikası Plenumunun iclası işə başlayıb.***

”Unikal” xəbər verir ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu barəsində Azərbaycan Respublikası Prezidentinin sorğusuna baxılıb.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib. İclasda sorğuverən tərəfin nümayəndələri qismində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov, cavabverən tərəfin nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyev və ekspert qismində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov çıxış ediblər.

Çıxışlardan sonra Konstitusiya Məhkəməsi Plenumunun üzvləri gündəlikdəki məsələ ilə bağlı qərar qəbul etmək üçün müşavirə otağına keçiblər.

Müşavirədən qayıtdıqdan sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Qərarını elan edib.

Qərarda deyilir ki, “Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə” Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinə uyğun hesab edilməlidir.

Qəbul edilmiş qərar elan olunduğu andan qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

Bununla da Konstitusiya Məhkəməsi Plenumunun iclası bağlı elan edilib.

# Ağdərədə seçki dairəsi yaradılır

***Azərbaycanda bəzi seçki dairələrinin hüdudlarına dəyişiklik edilir.***

Bunu Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov deyib. “Azərbaycanda Ağdərə rayonun yaradılması barədə qərar qəbul olunub. Bununla bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən müvafiq addımlar atılmalıdır.

Tərtər, Kəlbəcər və Ağdam rayonlarını ərazisində qismən dəyişiklik edilməklə Ağdərə rayonu yaradılıb. Bununla bağlı olaraq seçki dairələrinin hüdudlarına dəyişiklik edilməsi zərurəti yaranıb”, - deyə o bildirib.

21_27 IYUl-QARA.qxd 6/27/2024 11:51 PM Page 9



# Ali Məhkəməyə Aparat rəhbəri təyin edildi



***Azərbaycan Respublikasının Ali Məhkəməsinin Aparatına yeni rəhbər təyin edilib.***

"Unikal" xəbər verir ki, bu vəzifə Cavid Hüseynova həvalə olunub. C. Hüseynov uzun illər məhkəmə-hüquq sahəsində müxtəlif rəhbər vəzifələrdə çalışıb. O, 2005-2023-cü illərdə Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri, 2023-2024-cü illərdə ədliyyə nazirinin müşaviri olub.

2024-cü ildən isə Ali Məhkəmənin Məhkəmə təcrübəsinin təhlili şöbəsinin müdiri vəzifəsində çalışırdı.

# Deputat əməkhaqqı artımından danışdı




***"Dövlət qulluqçularının orta aylıq əməkhaqqısı ötən il əvvəlki ilə nisbətən 8,3 faiz artaraq 1933 manata çatıb. Bu haqda Dövlət Statistika Komitəsi məlumat yayıb. Bununla belə, ötən il ölkə üzrə orta aylıq nominal əmək haqqı 11,2 faiz yüksəlib".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, statistik müqayisə göstərir ki, dövlət qulluqçularının maaşlarındakı artım ölkə üzrə orta aylıq əməkhaqqı artımından aşağı olub:

"Yəni, Azərbaycanda əmək müqaviləsi ilə çalışanların orta maaşları dövlət qulluqçularının əməkhaqqları ilə müqayisədə 2.9 faiz bənd daha çox yüksəlib. Dövlət qulluqçularının maaşlarındakı artımın ölkə üzrə orta aylıq artım səviyyəsindən geri qalmasının səbəbləri nədir? Rəsmi statistikaya görə, ötən il 1 milyon 741 min nəfər əmək müqaviləsi ilə çalışıb. Onlardan 899 min nəfər dövlət sektorunda, 842 min nəfəri isə özəl sahədə fəaliyyət göstərib. Digər tərəfdən, özəl sektorda çalışanların sayı isə ötən il 12,1 min nəfər artıb. Yəni, artıq özəl sektorda çalışanların sayı dövlət sektorunda muzdla işləyənlərin sayına çatmaqdadır. Özəl müqavilələrin sayının artması ölkə üzrə müqayisəli şəkildə daha yüksək maaş artımına səbəb olub.

Digər tərəfdən, gizli məşğulluğun leqallaşdırılması da əmək haqqı fərqlərinə təsir göstərib. Son 5 ildə özəl sektorda əmək müqavilələrinin sayının artması məşğulluğun ağardılması ilə birbaşa bağlıdır. Bu sahədəki islahatlar ölkə üzrə ümumi rəsmi əməkhaqqı fondunu artırıb. Nəticədə, ölkə üzrə nominal əməkhaqqı dövlət qulluqçularının maaşlarına nisbətən daha çox artıb".

# "Tibbi tullantılar ciddi təhlükə yaradır" - Muxtar Babayev



***Tibbi tullantıların düzgün idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Tibbi tullantılar ətraf mühit və insan sağlamlığı üçün ciddi təhlükə yaradır***

"Unikal" xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Yaşıl dünya naminə Həmrəylik: Dayanıqlı Gələcək üçün Tullantıdan Dəyərə" Beynəlxalq Forumunda çıxışı zamanı deyib.

Nazir tibbi tullantıların toplanması, çeşidlənməsi, daşınması və zərərsizləşdirilməsi üçün müasir metodları və texnologiyaları tətbiq etməyin vacib olduğunu bildirib.

# Sadıq Sadıqovun indi də yağışla imtahanı...

## MİDA növbəti dəfə tənqid hədəfində: Yasamal Yaşayış Kompleksinin ərazisi niyə sulara qərq oldu?

***Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) növbəti dəfə cəmiyyətdə və mediada tənqid hədəfinə çevrilib. Buna səbəb bir neçə gün öncə paytaxt Bakının Yasamal rayonu ərazisində MİDA tərəfindən inşa olunan şəhərciyin elə də güclü olmayan yağışın ardınca sulara qərq olmasıdır.***

"Unikal.az" saytı xəbər verib ki, Yasamal Yaşayış Kompleksində yerləşən binaların həyətini su basıb. Elə bir vəziyyət yaranıb ki, bəzi avtomobillər yarıya qədər suda qalıb.

Bəzi binalarda sakinlər həyətə çıxa bilməyiblər. Görünən odur ki, binaların tikintisini həyata keçirən MİDA kanalizasiya sistemini standartlara uyğun qurmayıb. Nəzərə alsaq ki, dünən gecəki yağışın həcmi və müddəti elə də çox olmayıb. Amma MİDA-nın qurduğu sistemlərin bərbad olduğundan belə bir acı mənzərə yaranıb.

Sözügedən görüntülər sosial şəbəkələrdə də geniş yayılıb. Bina sakinləri baş verən durumdan narahatlıqlarını ifadə ediblər. Hətta fəsadın aradan qaldırılması prosesini belə sakinlər öz üzərlərinə götürüblər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin rəhbəri Sadiq Sadıqovdur. O, 1985-ci ildə Lomonosov adına Moskva Dövlət Universitetinin Fəlsəfə, 1997-ci ildə isə Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Hüquq fakültəsini bitirib. Lakin maraqlıdır ki, əmək karyerası boyunca hər iki ixtisasa uyğun çalışmayan Sadıqov bir vaxtlar "Barmek Azərbaycan Elektrik Şəbəkəsi" MMC-də, ardınca "Bakıelektrikşəbəkə" ASC-də, daha sonra "Azərişıq" ASC-də işləyib.

2016-cı ildə isə onun MİDA macərası başlayıb - əvvəlcə Mənzil İnşaatı Dövlət Agentliyi direktorunun müavini, 2018-ci ildə isə bu qurumun İdarə Heyətinin sədri təyin edilib.

Adi bir yağışın ardınca Agentliyin Yasamalda inşa etdiyi yaşayış kompleksinin sulara qərq olmasından belə nəticə çıxır ki, MİDA-nın mənzillərin satışındakı müəmmalı vəziyyət tikinti, kanalizasiya və digər sahələrdə də var.

Xatırladaq ki, Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa olunan Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsindəki mənzillərin seçimi xüsusilə böyük qalmaqala səbəb olmuşdu. Agentlik 442 mənzilin seçimində 8 939 nəfərin iştirak etdiyini, 257 mənzillə bağlı vətəndaşlar tərəfindən imzalanmış ərizələrinin təqdim olunduğunu açıqlamışdı. Sosial şəbəkələrdə isə satış prosesinin şəffaf keçməməsi ilə bağlı iddialar yayılmışdı. Belə ki, prosesin cəmi 4-5 saniyə çəkdiyi və bu qısa müddətdə bu qədər mənzilin satılmasının müəmmalı olduğu qeyd olunmuşdu.

Seçilən mənzillərin əvvəlcədən proqramlaşdırılmış formada saxlanıldığı və sonradan gözləmə bölümündə satıldığı barədə fikirlər də səsləndirilmişdi. Bir sözlə, illərdir vəziyyət dəyişmir: vətəndaşlar MİDA-nı satış prosesini qeyri-şəffaf təşkil etdiyi üçün tənqid atəşinə tutur, qurumu onların hüquqlarının pozulmasında günahlandırırdılar.

(Yeri gəlmişkən, bu qalmaqal o qədər böyüdü ki, "Güzəştli mənzil" sistemi vasitəsilə 30.03.2022-ci il tarixdə keçirilmiş mənzil seçimi mərhələsinin nəticələri ləğv olundu. Bu barədə Dövlət Təhlükəsizliyi Xidməti və Mənzil İnşaatı Dövlət Agentliyinin mətbuat xidmətləri birgə məlumat yaymışdı. Məlumatda qeyd edilirdi ki, Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində 442 mənzilin 30.03.2022-ci il tarixdə mənzillərin güzəştli şəkildə satışının həyata keçirildiyi "Güzəştli mənzil" sistemi üzrə mənzillərin seçimi prosesinə kənar şəxslərin qanunsuz müdaxiləsi halları ilə bağlı Agentliyin Dövlət Təhlükəsizliyi Xidmətinə müraciəti əsasında aparılan araşdırmalar nəticəsində Azərbaycan vətəndaşları - E.E.Məmmədov, R.A.Hacıyev, F.İ.Hüseynov, Y.İ.Lətifzadə, T.T.Abdullayev, C.F.Məmmədov və digərləri müəyyən edilərək saxlanılıblar. Araşdırmalarla təsbit edilib ki, həmin şəxslər qabaqcadan əlbir olub ayrı-ayrı qruplar halında maddi maraq zəminində onlara müraciət etmiş "Güzəştli mənzil" sistemi istifadəçilərinin güzəştli şərtlərlə mənzilə sahib olmalarını qeyri-qanuni yollarla reallaşdırmaq məqsədilə xüsusi kompüter proqram təminatları hazırlayıb və ya uyğunlaşdırıb tətbiqini həyata keçirməklə mənzil seçimi prosesinin sürətli keçidini təmin edərək qanunsuz müdaxilə etmiş və bununla da digər vətəndaşların ümumi və bərabər əsaslarla güzəştli mənzil əldə etmək imkanını məhdudlaşdırmaqla və dövlət orqanlarının normal fəaliyyətinə maneçilik törətməklə əhəmiyyətli zərər vurublar...)

Ötən ilin yayında, növbəti qalmaqallı satışın ardınca isə bu dəfə hüquqşünas Əkrəm Həsənov Mənzil İnşaatı Dövlət Agentliyinin ünvanına sərt ittihamlar səsləndirmişdi. "MİDA-da hamını işdən çıxarmaq, kadrları dəyişmək lazımdır. Eyni zamanda İctimai Şura MİDA-nın fəaliyyətinə nəzarət etməlidir. Şəffaflıq azdır, gərək, ictimai nəzarət də olsun. İnkişaf etmiş ölkələrdə bu var. Dövlətin güzəştli vəsaiti xərclənirsə, o idarətmə orqanında mütləq müstəqil şəxslərdən ibarət İctimai Şura olmalıdır ki, nəzarət etsinlər. Etməyəndə, belə hallar olur..." - hüquqşünas bildirmişdi.



İndi isə adi bir yağışın ardınca biabırçı vəziyyət problemin yalnız satış prosesi ilə məhdudlaşmadığını, Agentliyin inşa etdiyi yaşayış komplekslərində kanalizasiya sisteminin belə müasir standartlara uyğun qurulduğunu şübhə altına alır. Eyni zamanda ayrılan milyonlarla dövlət vəsaitinin təyinatı üzrə, effektiv xərcləndiyinə, ölkə rəhbərliyinin təşəbbüsü ilə ortaya çıxan humanist bir missiyanın Sadıqov və komandası tərəfindən lazımi səviyyədə icra olunduğuna, MİDA rəhbərliyinin öz işinin öhdəsindən layiqincə gələ bildiyinə dair haqlı suallar yaradır.

Belə suallara isə fəaliyyətində ciddi şəkildə şəffaflıq problemi hiss edilən Mənzil İnşaatı Dövlət Agentliyindən çətin ki, obyektiv və inandırıcı cavablar verilsin...

***Toğrul Əliyev***

21_27 IYUl-QARA.qxd 6/27/2024 11:51 PM Page 10



# İri məmurların sevimli "tender kralı" etibarsız çıxdı

## "Global Engineering Management Company" şirkətinə niyə dövlət satınalmalarında iştirak qadağası qoyulub?

***Dövlət satınalmalarında fəal iştirak edən "Global Engineering Management Company" MMC (VÖEN: 1300619201) etibarsız təchizatçılar siyahısına salınıb.***

Şirkət 15 mart 2025-ci ilə qədər dövlət satınalmalarında iştirak edə bilməz. Valyuta.az -ın hesablamasına görə, "Global Engineering Management Company" MMC təkcə 2023-cü ildə 20 satınalma müsabiqəsinin qalibi seçilib.

"Unikal"ın araşdırması nəticəsində aydınlaşıb ki, bu şirkəti qalib elan edən dövlət qurumları arasında rayon və şəhər icra hakimiyyətləri, nazirliklər, digər dövlət qurumları var. Məsələn, Mənzil İnşaatı Dövlət Agentliyi



Yevlax şəhəri, Rəşid Budaqov küçəsi, 1 ünvanında 1,9 ha torpaq sahəsində çoxmənzilli yaşayış binaların tikintisi ilə əlaqədar şəhərsalma əsaslandırılması, tikinti layihəsinin hazırlanması və müəllif nəzarətinin aparılması işlərinin satın alınması ilə bağlı 212 min 400 manatlıq müsabiqədə məhz ""Global Engineering Management Company"ni qalib elan edib.

Yenə ötən il Lənkəran şəhər və rayon ərazisində aparılacaq bir sıra yenidənqurma və təmirbərpa işləri üzrə layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması ilə bağlı müsabiqə keçirilib. Həmin müsabiqənin qalibi də "Global Engineering Management Company" MMC olub. Layihə-smeta sənədlərinin hazırlanması xidmətinə görə şirkətə 46 804,7 manat ödənilməsi nəzərdə tutulub.

2023-cü ilin iyulunda Bakı Şəhər Əsaslı Tikinti və Təmir 15 tenderə yekun vurub. Tender proseduru açıq tender, təkliflər sorğusu, kotirovka və bir mənbədən satınalma üsulu ilə həyata keçirilib. Tenderlərin ümumi məbləği 2,9 milyon manat olub. Qaliblər elan edilən müxtəlif şirkətlər arasında "Global Engineering Management Company"nin də adına rast gəlinir - 249 min 796 manat.

Bu cür nümunələrin sayını bəs deyincə artırmaq olar. Üstəlik, o da maraqlıdır ki, təkcə 1 ildə 20 satınalma müsabiqəsinin qalibi seçilən məlum şirkət barədə açıq mənbələrdə heç bir məlumata rast gəlinmir.

Digər tərəfdən, ayrı-ayrı məmurlar üçün sevimli şirkətə çevrilən "Global Engineering Management Company"nin niyə etibarsız təchizatçı elan olunduğu, hansı səbəbdən dövlət satınalmalarında iştirakının 2025-ci ilin martınadək yasaqlandığı bilinmir.

"Unikal"ın araşdırması nəticəsində aydınlaşıb ki, yeni satınalmalar haqqında qanuna əsasən etibarsız təchizatçı reyestri yaradılıb. Bir müddət öncə Təchizat Zənciri Liderləri Zirvəsində Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli bildirib ki, 2024-cü ilin əvvəlindən etibarsız təchizatçı reyestrinə 9 şirkət düşüb. 3 aydan 3 ilə qədər həmin təchizatçılar dövlət satınalmalarında iştirak hüququnu itiriblər. Onlar qeyri-dövlət satınalmalarında iştirak edə bilərlər, amma dövlət satınalmalarına qatılmaq hüququndan müəyyən müddətə məhrumdurlar.

Araşdırmamız nəticəsində etibarsız təchizatçı elan edilən bəzi fiziki və hüquqi şəxslərin adlarını da öyrəndik. Belə ki, "Global Engineering Management Company" ilə yanaşı Həbib Salman oğlu Əliyev (VÖEN: 0600092022), Şirvani Xaqani oğlu Məhərrəmov (VÖEN: 0600574492), "TFM-Smart Project" MMC (VÖEN: 6001055841) və "AM.M Line" MMC (VÖEN: 1300619201) də etibarsız təchizatçı reyestrinə düşüblər. Onların arasında dövlət satınalmalarında iştiraka qadağa 3 ayla 3 il arasında dəyişir.

Azərbaycanda təchizatçıların nəzarət orqanının əsaslandırılmış qərarı ilə etibarsız hesab edildiyi hallar müəyyən edilir. Bu, "Dövlət satınalmaları haqqında" qanun layihəsində öz əksini tapıb.

Belə ki, təchizatçılar müəyyən edildiyi hallarda həmin halların aşkar edildiyi gündən 5 iş günü ərzində, satınalma müqaviləsinin icra edilməsindən boyun qaçırılması və ya 1 təqvim ili ərzində 3 və ya daha çox satınalmada satınalma müqaviləsinin bağlanmasından imtina edilməsi halında isə 15 iş günü ərzində satınalan təşkilatın əsaslandırılmış müraciəti üzrə nəzarət orqanının əsaslandırılmış qərarı ilə etibarsız təchizatçılar hesab olunacaq.

Bundan başqa, bu Qanunun 16.1-ci maddəsində qeyd olunan hallar nəzarət orqanı tərəfindən aşkar edildikdə təchizatçılar nəzarət orqanının əsaslandırılmış qərarı ilə etibarsız təchizatçılar hesab olunacaq.

Etibarsız təchizatçılar nəzarət orqanı tərəfindən etibarsız təchizatçıların reyestrinə daxil edilirlər və bu barədə məlumatlar portalda yerləşdirilir.

Pozuntunun ağırlıq dərəcəsindən və təchizatçının əvvəllər belə pozuntuya yol verib-verməməsindən asılı olaraq, onun etibarsız təchizatçıların reyestrində qalma müddəti bu Qanunun 14.2.8-ci maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilir. Təchizatçıların etibarsız təchizatçıların reyestrində qalma müddəti 3 (üç) ildən çox ola bilməz və həmin müddət ərzində təchizatçıların satınalmalarda iştirakına yol verilmir.

"Global Engineering Management Company"nin qanunvericilikdə nəzərdə tutulan bütün bu hallardan hansı səbəb ilə etibarsız təchizatçı elan edildiyi bəlli olmasa da, onun dövlət satınalma müsabiqələrindən gələn ilin martınadək uzaqlaşdırılması düşündürücüdür. Güman etmək mümkündür ki, iri məmurlarımızın sevimli "tender kralı"nın pozuntu dərəcəsi elə də yüngül olmayıb...

***Toğrul Əliyev***

# "Dedi ki, Ramiz Mehdiyev bizə kirvə düşür" - Nazirliyin keçmiş əməkdaşlarının cinayət işi



***Mənimsəmə, dələduzluq və rüşvət almaqda ittiham olunan Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan "Azərbaycan məktəbi" jurnalının sabiq baş redaktoru Rahil Nəcəfov, Gözəl Mustafayeva və Amal Həsənlinin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən iclasda şahidlərin istirakı məsələsi müzakirə olunub. Sonra təqsirləndirilən şəxs, hazırda ev dustaqlığında olan Gözəl Mustafayeva ifadə verib: "Mən əvvəllər müəllimə işləmişəm. Memar Əcəmi metrosunun yanında görüşüb mənə tapşırıqlar verirdilər, hər ay da 400 manat öz ciblərindən əmək haqqı verirdi. Mənə deyirdilər Sizi Təhsil Nazirliyinə köçürdəcəklər. Bir gün getdim banka kredit götürməyə mənə dedilər "sən Təhsil Nazirliyinin işçisi deyilsən, sən kuryersən". Baharla Zaur olub şahid, mən olmuşam cinayətkar. Qohumum var idi, 2 balı çatmamışdı Bakıya düşsün, gəldilər 5 min manat pul verdilər ki, işə düzəldim. İnarə xanım məktəb direktoru düzəltmək istəyib, balı çatmırdı, bizim ailəvi tanış idi. Mən bütün işləri Baharla görmüşəm. O deyirdi Ramiz Mehdiyev kirvə düşür bizə, qohumdur. Pulu Təranə xanım verdi mənə, mən də Bahara verdim, sonra zəng etdi ki, mən gələ bilməyəcəm, pulu Amala ver, narahat olma. Sonra İnara xanım gedib həmin məktəbə, guya direktor təyin olunub. Deyiblər sizin bura aidiyyatiniz yoxdur. Ancaq pulunu aldım Rahildən qaytardım. Əslində mən Ramilə deyən işə düzəlmək istəyirdim. Amma Nailə xanım öz qızını düzəltmək üçün Ramilə xanıma pul verdi. O da Müdafiə Sənayesi Nazirliyində işləyir. Sonra Nailə xanımın oğlu gəlib pulu geri aldı. Mənim iki oğlum var idi, neynəməli idim, kirayədə qalırdım. Sevinc xanım Bədən Tərbiyə universitetində müəllimə işləyirdi, işini dəyişmək istəyirdi. Məni Təhsil Nazirliyinin işçisi kimi tanıyırdılar. Rahil mənə heç nə verməyib, ondan pul qopartmaq olardı.

Məmmədli Günel Məmməd qızının işində Gəncədə məktəb direktoru işləyən Məmməd müəllim zəng elədi. Dedi mənim oğluma, qızıma kömək eləsinlər. Rahil dedi ki, amma summa böyük olacaq. Məndə bankdan 10 min pul götürüb gətirib verdim Rahilə. Sonra özü qaytardı hamısını hissə-hissə.

Rahil Nəcəfov: "Mən heç vaxt xanıma işdən pul verməmişəm. Mənə qədər özü bəzi işlərdən pul götürüb. Eminin adamlarına diplom təsdiqi ilə bağlı adam lazım idi, qonşularım idilər. 4 mindən çox ulu mənə çatdırdılar, mən də Rahil müəllimə çatdırdım.

Cinayət işində olan Aidənin atası Yusubəli isə məni intihar həddinə çatdırmışdı, mən 14-cü mərtəbədən özümü atmaq istəyirdim. O Hitlerin Azərbaycan variantı idi. Diplom təsdiqi ilə bağlı 4 min manatdan çox pul vermişdi.

Məhkəmə prosesi iyul ayının 18-nə kimi təxirə salınıb.

Qeyd edək ki, Baş Prokurorluğun rəsmi məlumatına görə, Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan "Azərbaycan məktəbi" jurnalının sabiq baş redaktoru Rahil Nəcəfov Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarının pulunu mənimsəyib. Rahil Nəcəfov və onunla birlikdə mühakimə olunan şəxslərin istintaqı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılıb. Onların barəsində Cinayət Məcəlləsinin 178.2.2 (dələduzluq təkrar törədildikdə), 178.2.4-cü (dələduzluq xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 179-cu (mənimsəmə və ya israf etmə) və 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilib.

Cinayət işi üzrə Oruc Söhrab oğlu Əliyev, Rasim Əşrəf oğlu Hüseynov, Xəyalə Akif qızı Məmmədova, Lütviyyə Süleyman qızı Əsgərzadə, Şəfaqət Abdulla qızı Mahmudova, Yeganə Qüdrət qızı Qəhrəmanova, Nəsir Cavanşir oğlu Hüseynov, Qalib Bəhram oğlu Hacıyev, Nigar Oktay qızı Məmmədova, Mərziyyə Allahyar qızı Nəcəfova, Vüsalə Hacı qızı Musayeva, Ülkər Vaqif qızı Neymətova, Pərvanə Hacı qızı Məmmədova, Arif Alim oğlu Əsədov, Şəfa Tiflis oğlu Əliyeva, İradə Nizam qızı Avşarova, Nərman Əzizi oğlu Paşayev, Akif Həmzə oğlu Vəliyev, Esmira Seyfəl qızı Fuad, Bəbir Şərqi oğlu, Asif Xanoğlan oğlu Qədirov və Kamran Şahverən oğlu Kazımov zərərçəkmiş qismində tanınıblar.

***Seymur Əli***

# Balakən rayonunda yazlıq bitkilərin əkini haqqında

Rayonda yaz-tarla işləri başa çatmışdır. 2024-cü ilin məhsulu üçün 10669,7 hektar sahədə yazlıq bitkilər, o cümlədən 7125,7 hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 6942,7 hektarı dən üçün qarğıdalı), 640,0 hektar sahədə kartof, 1676,0 hektar sahədə tərəvəz, 346,0 hektar sahədə bostan bitkiləri, 82,0 hektar sahədə tütün və 800,0 hektar sahədə çoxillik otlar əkilmişdir.




**Yazlıq bitkilərin əkini**

hektar

| | Yanvar-iyun | | 2024-cü ilin yanvar-iyun ayları 2023-cü ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | **2024** | **2023** | |
| **Yaz əkininin əvvəlindən əkilmişdir** | **10669,7** | **11923,3** | **89,5** |
| Dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) | 183,0 | 181,0 | 101,1 |
| Qarğıdalı | 6942,7 | 7819,0 | 88,8 |
| o cümlədən dən üçün | 6942,7 | 7819,0 | 88,8 |
| Yem bitkiləri | 800,0 | 734,0 | 109,0 |
| Tütün | 82,0 | 153,3 | 53,5 |
| Kartof | 640,0 | 627,0 | 102,1 |
| Tərəvəz | 1676,0 | 2065,0 | 81,2 |
| Bostan bitkiləri | 346,0 | 344,0 | 100,6 |

***Balakən Rayon Statistika İdarəsinin rəisi Fərhad Xəlilov***

# COP29-a ev sahibliyi etmək çox cəsarətli addımdır - İnger Andersen

***İşğaldan azad olunmuş ərazilərdə tikinti tullantılarının yenidən məhsula çevrilməsi, tikintidə istifadə oluması ilə bağlı müzakirələrimiz oldu.***



Bu fikirləri ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev Azərbaycanda səfərdə olan BMT Baş katibinin müavini, BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersenlə birgə keçirdiyi brifinqdə deyib.

"Bu istiqamətdə hazırda işlər davam etdirilir. Eləcə də Azərbaycanda erkən xəbərdarlıq sistemi ilə bağlı layihə ətrafında da iş gedir. Biz bu gün bir daha niyyətlərimizi təsdiq etdik, irəliləyən müddətdə icrası həyata keçiriləcək", - nazir bildirib.

BMT Baş katibinin müavini, BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen deyib ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizə istiqamətində böyük işlər görür.

"Azərbaycanın təşəbbüsü, COP29-a ev sahibliyi çox cəsarətli addımdır. Mən görülən işlərin miqyası ilə tanışam, özüm şahidəm", - o əlavə edib.

# Heydər Əsədovun ən yaxın kadrlarından biri ilə bağlı müəmmalar

## Sabiqlərin izi ilə: yüksək vəzifə tutduğu cəmi 3 ildə hədsiz varlandığı deyilən keçmiş rəisin topladığı sərvətin aqibəti necə olub?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Dövlət Baytarlıq Nəzarəti Xidmətinin keçmiş rəisi Azər Süleymanov haqqındadır.***

2018-ci ildə tutduğu vəzifədən kənarlaşdırılan Süleymanovu yerli media 2013-2018-ci illərdə kənd təsərrüfatı naziri işləyən Heydər Əsədov kadrı kimi qələmə verirdi. Əsədovun həmin postu itirməsindən az sonra Süleymanovun da işsiz qalması isə bu versiyanı qüvvətləndirirdi. Məsələ burasındadır ki, Dövlət Baytarlıq Nəzarəti Xidməti məhz Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərirdi.



Keçmiş rəisin rəhbərliyi dövründə adıçəkilən qurumla bağlı şikayətlər və korrupsiya iddiaları geniş yayılmışdı. Bildirilirdi ki, H.Əsədov A.Süleymanovu həmin vəzifəyə 2015-ci ildə gətirib, lakin maraqlıdır ki, onun kifayət qədər varlı məmurlardan birinə çevrilməsi üçün vur-tut 2 il kifayət edib.

2017-ci ildə ölkə mediasında yayılan məlumatlardan aydın olurdu ki, sabiq rəis qısa müddətdə Göygöl rayonunda böyük ev, "Karusel" İstirahət Mərkəzi inşa etdirib, Mehdiabadda böyük villasının tikintisini və təmirini də başa çatdırıb. Həmçinin qardaşının adına Binəqədi rayonu S.S.Axundov küçəsi, 7 C ünvanında "İsmayıloğlu" MTK-nın inşa etdiyi hündür mərtəbəli binanın II ala qapı, 6-cı mərtəbəsində 2 mənzili alaraq birləşdirib.

Süleymanovun Dövlət Baytarlıq Nəzarəti Xidmətindəki pullu vəzifələrə öz yaxınlarını təyin etdiyinə dair məlumatlar da səngimirdi. "Respublika Baytarlıq Laboratoriyasında direktor müavini işləyən dayısı oğlu Elşad daima xaricdə turist səfərində-dir. Xidmətin heyvan məhsullarına nəzarət şöbəsinin sektor müdiri qanunvericiliyə zidd olaraq dövlət qulluğu komissiyasından keçmədən 3 ildir qanunsuz müqavilə ilə vəzifə tutan Aydın Hüseynov isə "daxili bazarı koordinasiya" edir" - bu iddialar həmin vaxt "Yeni Müsavat"da yer almış, qarşı tərəfdən təkzib edilməmişdi.

O da bildirilirdi ki, A.Hüseynov şirkətlərin istehsal etdiyi heyvandarlıq məhsullarının xaricə ixrac etmək üçün baytarlıq-sanitariya vəziyyətini guya ki, monitorinq etmək məqsədilə hər qeyri-iş günləri, gizlincə, respublikanın rayon və şəhərlərində fəaliyyət göstərən istehsal müəssisələrinə göndərilir və iş günləri isə heç bir şey olmamış kimi öz işinin üstündə olur. Onun belə səfərlərindən sonra həmin şirkətlərin xaricə məhsul çıxartmaq məqsədilə reystrə daxil edilməsi üçün Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən vəsatət verilir. Bu səfərlərin iş günlərindən kənar gerçəkləşməsi də şübhə doğuran məqamlardan biri kimi qiymətləndirilirdi.

Mətbuatda yazılanlara görə, Aydın Hüseynov ölkəyə Rusiyanın Stavropol, Moskva vilayəti, Rostov, həmçinin İran və s. dövlətlərdən quşçuluq məhsulları idxal edən iş adamlarının başına olmazın "oyunları" gətirir. "İxrac edən ölkədə quş qripi var" deyərək əvvəlcə məhsulun Azərbaycana buraxılmayacağı səhnəsini "qurur". Sitat: "Təlimata görə quş qripi baş verən ocaqdan 10 km radiusda olan ərazidən quşçuluq məhsulu çıxarıla bilməz. Ancaq idxal sənədlərindən də göründüyü kimi, iş adamlarının ölkəyə idxal etdiyi məhsullar xəstəlik baş vermiş ərazidən 100 km məsafədə olan təsərrüfatdan çıxır. Belə olan halda 100 km məsafədə istehsal olunmuş quş məhsullarına heç bir məhdudiyyət qoyula bilməz. Aydın Hüseynov və Azər Süleymanov tandemi bundan maddi maraqlar çərçivəsində manipulyasiya edərək böyük pullar qazanır. Bu, yalnız aysberqin görünən tərəfidir".

Maraqlıdır ki, A.Süleymanov və A.Hüseynov yuxarıdakı ittihamlara da hər hansı formada aydınlıq gətirməmişdi.

Sabiq rəislə bağlı başqa ağır ittihamlar da vardı. Media yazırdı ki, 2018-ci ildə Kənd Təsərrüfatı Nazirliyində rəhbərlik dəyişdiriləndən sonra Dövlət Baytarlıq Nəzarəti Xidmətində aparılan yoxlamalarla üzə çıxarılıb ki, son illərdə kəsim üçün Azərbaycana xaricdən gətirilən malqaranın xeyli hissəsi "damazlıq" adı ilə rəsmiləşdirilib. Rəsmiləşdirilmənin bu şəkildə aparılmasının isə xüsusi səbəbləri olub. Mal-qara idxal olunarkən onları Dövlət Baytarlıq Nəzarəti Xidmətinin əməkdaşı yoxlayır və bu heyvanların damazlıq olub-olmadığına dair sənəd verilir. Lakin Süleymanovun rəis təyinatının ardından mənzərə dəyişib: minlərlə baş mal-qara damazlıq adı ilə rəsmiləşdirilib. Buna görə isə idxalçılardan "haqq alınıb". Yəni qazanan Xidmət rəhbərliyi olub, itirən isə dövlət büdcəsi... Belə ki, göstərilən tarixdə Nazirlər Kabinetinin qərarı ilə Azərbaycana idxal olunan damazlıq heyvanlar gömrük-idxal rüsumundan azad olunmuşdu. Məhz həmin qərara görə ətlik üçün gətirilən malqara damazlıq kimi rəsmiləşdirilib və müvafiq olaraq rüsum ödənilməyib.

Başqa bir iddia isə vaksinlərlə bağlı idi. Bildirilirdi ki, A.Süleymanovun rəhbəri olduğu quruma hər il vaksinlərin alınması üçün külli miqdarda vəsait ayrılır. Bu vəsaitin üçdə iki hissəsi bir qayda olaraq Xidmət rəhbərliyi tərəfindən mənimsənilir.

Yuxarıdakı iddilar da adıçəkilən qurum tərəfindən həmin dövrdə heç vaxt təkzib edilməmişdi.

Üstəlik, o zaman bütün bu baş verənlərdən nazir postunu tutan Heydər Əsədovun xəbərsiz olması isə tamamilə istisna edilirdi. Məsələ ondadır ki, eks-nazirin zamanında başda Dövlət Baytarlıq Nəzarəti Xidməti, "Aqrolizinq" olmaqla Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumlarda yeyintilərə yol verildiyinə dair iddiaların ortaya atılması, xəbərlərin yayılması artıq cəmiyyətdə adi hal kimi qarşılanırdı. Buna səbəb kimi də H.Əsədovun vaxtilə Hesablama Palatasına rəhbərlik etməsi səbəbindən bu qurumlarda mütəmadi, obyektiv auditlərin aparılmasını əngəlləməsi göstərilirdi.

Sabiq Xidmət rəisinin hazırda harada və nə işlə məşğul olduğu bəlli deyil.

***Toğrul Əliyev***

## 5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Meşələrimizi yayda yanğından necə qoruyaq?

## Hikmət Əlizadə: "Yanğın hadisələrinin qarşısının alınması üçün mineral zolaqlar salınır, müşahidə qüllələrinin, daimi nəzarət postlarının yaradılması üçün tədbirlər görülür"

***Havaların qızması meşələrdə yanğın təhlükəsi riskini artırıb. Dünən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidməti Azərbaycanın bəzi bölgələrində yanğın təhlükəsinin kompleks göstəricilərini açıqlayıb.***

Qurumdan verilən məlumata görə, Naxçıvan MR üzrə yanğın indeksi Ordubadda yüksək, Naxçıvan şəhəri, Şərur, Şahbuz, Culfada isə çox yüksək yanğın təhlükəsi növünə çatıb. Gəncə-Qazax bölgəsi üzrə yanğın indeksi Daşkəsəndə kiçik, Tərtər, Tovuz, Gədəbəy, Naftalan, Gəncədə orta, Ağdam, Şəmkirdə yüksək, Ağstafada isə çox yüksək yanğın təhlükəsi növünə çatıb. Həmçinin, Balakən-Şəki bölgəsi üzrə yanğın indeksi Şəki, Balakən, Oğuz, Zaqatalada kiçik, Qəbələdə isə orta yanğın təhlükəsi növünə çatıb. Qeyd edilib ki, yanğın indeksi Quba, Qusar, Altıağacda kiçik, Şabranda isə çox yüksək yanğın təhlükəsi növünə çatıb. Dağlıq Şirvan (İsmayıllı, Şamaxı, Qobustan) bölgəsi üzrə yanğın indeksi Qobustanda kiçik, Şamaxıda orta, İsmayıllıda yüksək yanğın təhlükəsi növündədir. Bu göstərici Lerikdə orta, Astara, Yardımlı, Lənkəranda isə yüksək yanğın təhlükəsi növünə çatıb.

Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi Hikmət Əlizadə "Unikal" qəzetinə müsahibəsində bildirib ki, yay fəslinin daxil olması ilə əlaqədar dünyanın əksər ölkələrində kütləvi meşə yanğınları baş verir. O, Azərbaycanın da bu riskdən sığortalanmadığını bildirib. Həmsöhbətimiz deyib ki, yanğın hadisəsi həm ekologiyaya, həm də insanların həyatına ciddi risk yaradır.

"Ona görə çalışmalıyıq ki, meşə yanğınları baş verməsin. Ötən il baş verən yanğınların çoxu antropogen təsir nəticəsində baş verib. Biçin yerlərinin yandırılması meşə yanğınlarına səbəb olur. Əkin yerlərini yandıranlar cinayət məsuliyyətinə cəlb olunsa da, belə hallar hər il təkrarlanır", deyə Hikmət Əlizadə bildirib.

Onun sözlərinə görə, yay fəslində istirahətə gedən insanlar da meşələrdə yanğın təhlükəsi yaradırlar: "Yanğın hadisələrinin qarşısının alınması üçün mineral zolaqlar salınır, müşahidə qüllələrinin, daimi nəzarət postlarının yaradılması üçün tədbirlər görülür. Təbii sərvətlərimiz olan meşələrimizə insanlardan qayğı ilə yanaşmaq tələb olunur. Hər kəs meşədə dincələndə bu təhlükəni nəzərə alaraq yanğın təhlükəsizliyi qaydalarına əməl etməlidir".

Fövqəladə Hallar Nazirliyindən (FHN) də bildirilib ki, meşə yanğınlarının böyük qismi



insanların meşədə iş və istirahət zamanı yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Buna görə də meşəyə istirahətə gedənlər də yanğın təhlükəsizliyi qaydalarına əməl etməlidir. Meşə və meşəətrafı sahələrdə yandırılan tonqal nəzarətsiz qalmamalıdır. Tonqalı ağac altında, quru ot və kol-kos, ağac qırıntıları olan ərazidə qalamaq olmaz! Tonqal ətrafındakı otlar 0,5-1 metr radiusda təmizlənməlidir. Tonqal üçün xüsusi yer hazırlanmalı, yaxud köhnə tonqalın yerindən istifadə edilməlidir. Küləkli havada tonqal qalamaq olmaz! Ərazini tərk edən zaman tonqal tam söndürülməli, üzərinə su tökülməli və sonra üstü torpaqla örtülməlidir. Meşədə tonqal qalayan şəxs tonqalın tam söndüyünə əmin olduqdan sonra ərazini tərk etməlidir.

Bunlarla yanaşı meşədə söndürülməmiş kibrit çöpünü və siqaret kötüyünü yerə atmaq olmaz! Meşəyə sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərlə islanmış material atmaq qadağandır. Şüşə qab və şüşə qırıntıları atmaq da olmaz. Onlar günəş şüasının təsirindən yanğına səbəb ola bilər. Davamlı yanıq iyi, duman şəkilli tüstü, heyvan və həşəratların narahatlığı və eyni bir istiqamətə təlaşlı hərəkəti meşə yanğınlarının əsas əlamətləridir. Bu əlamətlərin və ya meşədə yanğının şahidi olanlar, dərhal olduğu yeri tərk edərək "112"qaynar xəttinə zəng edib yanğın haqqında məlumat verməlidir.

Əgər kimisə meşədə yanğın yaxalayıbsa, üzünü və başını üst geyimi ilə örtərək yanğın zonasından kənarlaşmalı və küləyin istiqamətinin əksinə doğru hərəkət etməlidir. Yanğın zonasından çıxa bilmirsə, tezalışan materialdan olan paltarını əynindən çıxarmalı, imkan varsa yaxınlıqdakı göl, nohur və digər su hövzəsinə girərək paltarını islatmalıdır. Üzünü çoxqatlı yaş parça sarğısı ilə örtərək ərazidən kənarlaşmalıdır.

FHN-dən bildiriblər ki, üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs və ya şəxslər tərəfindən bu qaydaların pozulması, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda onların əməlləri artıq cinayət məsuliyyətinə səbəb olur.

FHN-dən cavabda o da bildirilib ki, yay fəsli başlayandan "Meşə fondu və xüsusi mühafizə olunan ərazilərdə baş verə biləcək yanğın hadisələrinə qarşı qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üzrə 2023-2025-ci illər üçün birgə fəaliyyət planı" mövzusunda regional seminar-müşavirələr keçirilir. Seminar-müşavirələrdə meşə və yaşıllıq ərazilərdə yanğın hallarının baş verməməsi üçün kənd təsərrüfatı ilə məşğul olan sahibkarların, fermerlərin, meşə ətrafında yaşayan kənd sakinlərinin, heyvandarlıq və əkinçiliklə məşğul olan vətəndaşların odla ehtiyatlı davranmaları və yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etmələrinin vacibliyi qeyd edilir.

Qurumdan qeyd edilib ki, meşə yanğınlarının baş verməməsi üçün taxıl zəmilərində yanğın təhlükəsizliyi qaydalarına əməl edilməlidir. Taxıl zəmilərində kibrit yandırmaq, açıq oddan istifadə etmək, o cümlədən siqaret çəkmək, zəmilərin yaxınlığında tonqal qalamaq qəti qadağandır! Bu məkanlarda siqaret çəkmək üçün xüsusi yer ayrılmalıdır! Yolla hərəkət edərkən tam söndürülməmiş siqaret kötüyü və ya kibriti, yanar mayelərlə islanmış materialları, eləcə də şüşə qab və şüşə qırıntılarını ətrafa atmaq yolverilməzdir. Taxıl zəmilərinin ətrafı quru ot və tullantılardan vaxtaşırı təmizlənməli, eni 4 metrdən az olmamaqla şumlama yolu ilə mineral (təhlükəsizlik) zolaq yaradılmalıdır.

Biçində iştirak edən texnikalar ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmalı, biçinə başlamazdan əvvəl yanğın-texniki müayinədən keçirilməlidir. İşdən sonra texnikanın sahələrdə saxlanılması, gecə vaxtı yanacaqla doldurulması, yanacaq və yağların ətrafa tökülməsinə yol verilməsi, texnikalarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması qəti qadağandır! Tarla düşərgələri, taxıltəmizləmə xırmanları, ot və küləş tayaları yığılan sahələr ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir. Yanğın baş verərsə, iş dərhal dayandırılaraq ətrafdakılar məlumatlandırılmalı, əlaltında olan ilkin yanğınsöndürmə vasitələri ilə yanğını söndürməyə çalışılmalı və "112" qaynar xəttinə məlumat verilməlidir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Veteran jurnalist Hidayət Elvüsalın 75 illik yubileyi ilə bağlı toplantı keçirilib

***Azərbaycan Mətbuat Şurasında veteran jurnalist Hidayət Elvüsalın 75 illik yubileyi ilə bağlı toplantı keçirilib. Tədbiri giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid yubilyarın ömür yolu barədə məlumat verərək bildirib ki, 1949-cu il iyununun 25-də Kəlbəcərdə anadan olmuş H.Elvüsal Bakı Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsini bitirib. O, rayonda çıxan "Yenilik" qəzetində, yerli radio verilişləri redaksiyasında çalışıb, həmçinin Azərbaycan Dövlət Radiosu ilə əməkdaşlıq edib. Müxtəlif illərdə "Azərbaycan gəncləri", "Xalq qəzeti" (o zamankı "Kommunist"), "Ədalət" qəzetlərində işləyib.***

Yubilyarın ötən əsrin 90-cı illərinin əvvəllərində böyük populyarlıq qazanmış "Səhər" qəzetinin yaradıcılarından biri olduğunu, nəşrdə baş redaktorun müavini kimi fəaliyyət göstərdiyini deyən R.Məcid onun "Belə-belə işlər" və "Kriminal" qəzetlərinə də rəhbərlik etdiyini, dövri mətbuatda oçerkləri, müsahibə və reportajları, hekayə və povestləri ilə tanındığını vurğulayıb.

MŞ sədri onu da bildirib ki, H.Elvüsalın xüsusən "Belə-belə işlər" rubrikası ilə dərc edilmiş saysız-hesabsız yazıları cəmiyyətin ruhundan xəbər verib. Bu cəhət müəllifə nüfuz və hörmət qazandırıb. R.Məcid yubilyarın eyni zamanda mahnı mətnlərinin müəllifi və həvəskar bəstəkar kimi də tanındığını deyib. MŞ sədri rəhbəri olduğu qurumun diplomunu H.Elvüsala təqdim edib.

Toplantıda çıxış edənlərdən "Ədalət" qəzetinin təsisçisi, Milli Məclisin deputatı Aqil Abbas, MŞ-nin Ahıl Jurnalistlər Məclisinin rəhbəri, "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, yubilyarın sənət dostlarından, tələbəlik və iş yoldaşlarından əməkdar jurnalist Rəhim Hüseynzadə, İsrəfil Qurbanov, Əli Şamil, Akif Cabbarlı, "Xalq qəzeti"nin şöbə müdiri İmran Bədirxanlı, şair Adil Cəmil və başqaları H.Elvüsalın yaradıcılığındakı ayrı-ayrı məqamlardan söz açıblar. Onlar bildiriblər ki, yubilyar jurnalistikaya xüsusi ahəng gətirən ifadə tərzi, milli mətbuatımızın ənənələrinə sadiqlik ruhu, hadisə və proseslərə peşəkar yanaşması ilə seçilib. Jurnalistikada olduğu kimi, publisistikada da özünəxas dəst-xətti onu hər zaman oxucuların sevimlisi edib.

Sonda çıxış edən H.Elvüsal əməyinə verilən qiymətə, haqqında söylənilən xoş sözlərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirib.

21_27 IYUl-QARA.qxd 6/27/2024 11:51 PM Page 13



## "Azad edilmiş ərazilərdə tullantıların müasir idarəetmə sistemi qurulur" - Nazir

***Qarabağda müasir tullantıların yığılması, çeşidlənməsi və təkrar emalı infrastrukturunun yaradılması məqsədilə Regional Strategiya hazırlanıb.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev "Yaşıl dünya naminə həmrəylik: Dayanıqlı gələcək üçün tullantıdan dəyərə" adlı Beynəlxalq Forumda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, istehsal müəssisələrinin də tullantıların düzgün idarə edilməsində böyük məsuliyyəti var: "İstehsalçının genişləndirilmiş məsuliyyəti (İGM) konsepsiyası, məhsulun həyat dövrünün bütün mərhələlərində istehsalçının məsuliyyətini əhatə edir. Bu, məhsulun dizaynı, istehsalı, istifadəsi və son olaraq, tullantı kimi idarə olunmasını nəzərdə tutur. Azərbaycanda bu mexanizmin tətbiqi məqsədilə qanunvericilik bazası təkmilləşdirilir".

M.Babayev bildirib ki, işğaldan azad edilmiş ərazilərdə tullantıların müasir idarəetmə sisteminin qurulması üzərində fəal şəkildə iş aparılır: "Bu, yenidənqurma prosesinin vacib bir hissəsidir. Qarabağda müasir tullantıların yığılması, çeşidlənməsi və təkrar emalı infrastrukturunun yaradılması bizim əsas prioritetlərimizdəndir. Bu məqsədlə Regional Strategiya hazırlanıb".

Nazir vurğulayıb ki, işğal dövründə bina və tikililərin dağıdılması nəticəsində çoxlu tikinti-söküntü tullantıları yaranıb: "Bu tullantıların müasir şəkildə idarə olunması və xammal kimi təkrar istifadəsi vacibdir. Ağdam rayonunda bərpası planlaşdırılan kəndlərdə pilot layihələr həyata keçirilir. Lakin bu ərazilərdə intensiv bərpa-quruculuq işləri aparıldığı üçün özəl sektorun diqqətinin artırılması vacibdir. Bu prosesin başlanmasında UNEP-in dəstəyini xüsusilə qeyd etmək istərdik".

## Serbiyanın ölkəmizdəki səfiri Lənkəranda olub

***İyunun 27-də Serbiya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavlyeviç Lənkəran rayonuna səfər edib. Səfər çərçivəsində xarici diplomat Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşovla görüşüb.***

"Unikal" xəbər verir ki, icra başçısı Serbiya səfirinə Lənkəran rayonunun tarixi, coğrafi mövqeyi, turizm potensialı, ictimai-siyasi həyatı və sosial-iqtisadi potensialı barədə ətraflı məlumat verib, xarici diplomatla rayonun Serbiya ilə qarşılıqlı iqtisadi və mədəni əməkdaşlığının perspektivləri barədə müzakirələr aparıb. Taleh Qaraşov iki ölkə arasındakı strateji tərəfdaşlıq səviyyəsində olan qarşılıqlı əlaqələrin dövlət başçılarının səyi nəticəsində daha da möhkəmlənməkdə olduğunu vurğulayıb. Azərbaycanla-Serbiya arasındakı viza rejiminin ləğv olunmasına toxunan icra başçısı bildirib ki, bu, hər iki ölkənin turizm sektorunun inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərəcək addımlardandır.

Səmimi qəbula və xoş söhbətə görə icra başçısına təşəkkür edən serbiyalı diplomat ölkələrimiz arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıb, dövlət başçılarının dostluq münasibətlərinin Serbiya-Azərbaycan arasındakı əlaqələrin daha da möhkəmlənməsindəki xüsusi rolunu qeyd edib. Səfir Serbiyanın Lənkəranla qarşılıqlı iqtisadi, mədəni və xüsusilə turizm əlaqələrin qurulmasında maraqlı olduqlarını və əməkdaşlıq layihələrinin həyata keçirilməsi istiqamətində konkret addımların atılmasının mümkünlüyü barədə danışıb.

Görüşdə Serbiya səfirinə xatirə hədiyyəsi təqdim olunub.

Daha sonra xarici diplomat səfər çərçivəsində Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi, "Azərxalça" ASC-nin Lənkəran filialı, İstisu qəsəbəsində çay plantasiyası, Şağlaser kəndində çiyələk bağı və Xanbulançay dəryaçası ilə tanış olub.

# İsmayıllının üç kəndi ilə əlaqə kəsildi, sakinlər köməksiz qaldılar

***Ismayıllının Qoydan kəndində torpaq sürüşməsi təhlükəli həddə çatıb.***



"Unikal" Oxu.Az-a istinadən xəbər verir ki, kənddə qalan bir neçə ailə çöldə gecələməli olub. Girdiman çayına güclü sel gəlməsi səbəbindən onların kənddən çıxması mümkün deyil.

İsmayıllı rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Mahmud Süleymanov bildirib ki, Qoydan kəndinə yaxın dağlıq yamacda baş verən torpaq sürüşməsi lil halında kəndin mərkəzinə doğru hərəkətdədir.

O qeyd edib ki, İsmayıllı rayonu ərazisində aramsız yağan yağışlar nəticəsində Qoydan kəndində 21.06.2024-cü il tarixdə axşam saatlarından başlayaraq kəndə yaxın dağlıq ərazidən yaşayış evlərinə doğru torpaq sürüşməsi müşahidə edilib.

"Sürüşmə nəticəsində Əsgər Nuru oğlu Musayevə məxsus həyətyanı torpaq sahəsində yerləşən iki fərdi yaşayış evinə real təhlükə yaranıb.

Kəskin relyefdə yerləşən Qoydan kəndinə yaxın dağlıq yamacda baş verən torpaq sürüşməsi lil halında kəndin mərkəzinə doğru hərəkətdədir.

İlkin təxirəsalınmaz tədbirlər çərçivəsində qeyd olunan vəziyyətlə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə (FHN) və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (ETSN) məlumat verilib, vətəndaş Musayev Əsgər Nuru oğlunun evdən dərhal çıxması barədə qərar qəbul edilib.

Hazırda hava yağıntılı olduğundan Girdiman və Siyəru çaylarında sel səbəbindən kəndlə nəqliyyat əlaqəsi kəsilib. Kəndin kommunikasiya xətlərinin işlək vəziyyətdə olması və təbiət hadisəsinin dinamikası tərəfimizdən nəzarətdə saxlanılır. Hava şəraiti imkan yaratdığı təqdirdə kəndin ərazisinə ağır texnikaların cəlbi istiqamətində tədbirlər görüləcək", - deyə M.Süleymanov vurğulayıb.

"Azərişıq" ASC-nin Mətbuat Xidmətinin rəhbəri Vaqif Aydınoğlu isə bildirib ki, elektrik enerjisinin tam təmin olunması üçün kənd yollarının açılmasına ehtiyac var.

"Əməkdaşlarımız sözügedən kəndlərdə öz imkanları daxilində görə biləcəkləri bütün işləri görürlər və o hissələrdə elektrik enerjisinin verilməsi təmin olunur. O yerlərdə ki, texnikaya ehtiyac var, gözləmək məcburiyyətindəyik. Çünki yol bağlıdır. Yol açılan kimi qəza xidməti əraziyə keçib, hər üç kənddə sel aparan dayaqları yenisi ilə əvəz edəcək", - deyə V.Aydınoğlu bildirib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) mətbuat katibi Anar Nəcəfli kənd yollarının açıq olduğunu və gediş-gəlişdə hər hansı problem olmadığını diqqətə çatdırıb.

"Hazırda bizim Lahıc yolunda müəyyən problemlərimiz var. Həmin yolda iki hissədə - Lahıc qəsəbəsinin girişində və Lahıc yolunun üzərində, bir yerdə qaya süxurları və lil qatını sel suları yolun hərəkət hissəsinə gətirib.

Bir az əvvəl Lahıc yolunda qaya süxurlarının yolun hərəkət hissəsinə düşməsi səbəbindən müəyyən çətinlik yaranıb. Hazırda ərazi texnikalar vasitəsi ilə təmizlənir. Yolboyu hərəkət olsa da, çətinlik yaranan hissədə problemin aradan qaldırılması istiqamətində işlər görülür.

Qoydan və Dvoryan kəndləri Agentliyimizin balansında deyil, amma Əhənd yolu açıqdır, o yolda da hər hansı problem yoxdur. Balansımızda olan digər kəndlərə gediş-gəlişin təmin olunması istiqamətində də işlər aparılır. Hazırda güclü yağış yağmasına baxmayaraq texnikalarımız ərazilərə səfərbər olunub və işləyirlər", - deyə A. Nəcəfli qeyd edib.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən bildirilib ki, aidiyyəti qurumların nümayəndələrindən ibarət birgə komissiya tərəfindən qısa müddətdə əraziyə baxış keçiriləcək.

Kənd sakinlərinin verdiyi son məlumata görə isə bu dəqiqələrdə Namazgah kəndindən Lahıca gedən yolda bir neçə yerdə dağ uçqunu baş verib, bu səbəbdən gediş-gəliş tamamilə dayanıb.

# Müəllimlərin sertifikasiyasında yüksək nəticəsi olan rayon və şəhərlər - SİYAHI



***Ibtidai siniflər müəllimlərinin sertifikatlaşdırma nəticələrinə görə orta balı ən yüksək olan rayon və şəhərlər açıqlanıb.***

Bu barədə elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetində "Sertifikatlaşdırma 2024: peşəkar müəllim - keyfiyyətli təhsil" mövzusunda keçirilən tədbirdə çıxışı zamanı deyib.

Həmin rayon və şəhərlər aşağıdakılardır:

1. Sumqayıt
2. Bakı
3. Abşeron
4. Şirvan
5. Gəncə
6. Mingəçevir
7. Siyəzən
8. Quba
9. Oğuz
10. Şabran
11. Hacıqabul
12. Xaçmaz
13. Qazax
14. Salyan
15. Zəngilan


## ELAN

İtirilmiş Pulqabı: 9 iyun 2024-cü il tarixində Sumqayıt şəhəri 9-cu mikrorayondan Dədə Qorqud restoranına gedən yolda qara rəngli pulqabımı itirilib. Pul qabı Əlimətov Arif Əlimət oğluna aiddir. Pul qabının içində şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, 50-EM-125 dövlət nömrə nişanlı avtomaşının texniki pasportu, bank kartları, 280 manat pul və xidməti vəsiqə var idi. Tapan şəxsdən mənə müraciət etməsini xahiş edirəm. Tapana pul qabında olan 280 manat pul mükafat veriləcək.

Əlaqə: +99455 268 13 00.

21_27 IYUI-QARA.qxd 6/27/2024 11:52 PM Page 14



# ETSN istehsalçı şirkətləri "Sıfır Tullantı" Bakı Bəyannaməsinə qoşulmağa çağırıb

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü və "Təmiz Şəhər" ASC-nin dəstəyi ilə 2024-cü ilin 27-28 iyun tarixlərində Bakıda "Yaşıl Dünya Naminə Həmrəylik: Dayanıqlı Gələcək Üçün Tullantıdan Dəyərə" Beynəlxalq Forumunun keçirilməsi planlaşdırılır.***



Forum tullantıların azaldılması və ekoloji problemlərin həlli istiqamətində yeni strategiyaların formalaşdırılması və davamlı inkişafın təmin edilməsi məqsədi ilə təşkil olunur.

Bakıda keçiriləcək Beynəlxalq Forumun yekun nəticələrindən biri kimi Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü, Coca-Cola və Carlsber Azərbaycan şirkətlərinin dəstəyi və Azərbaycanın digər aparıcı şirkətlərinin iştirakı ilə "Sıfır Tullantı" Bakı Bəyannaməsinin qəbul edilməsi nəzərdə tutulur. Bakı Bəyannaməsinin qəbul edilməsində məqsəd şirkətlərin istehsal prosesində ekoloji durumun yaxşılaşdırılması üzrə könüllü öhdəliklərinin vacibliyini diqqətə çatdırmaq, müvafiq pilot layihələr həyata keçirməklə tullantıların minimuma endirildiyi, resursların maksimum dərəcədə istifadə edildiyi və təbii mühitin gələcək nəsillər üçün qorunub saxlanıldığı dairəvi iqtisadiyyata töhfə verməkdir.

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyində Forumdan əvvəl Bəyannamə barədə fikir mübadiləsi aparmaq üçün görüş təşkil edilib. Nazirlik daha genişmiqyaslı nəticələr əldə etməkdən ötrü istehsalçı şirkətləri "Sıfır Tullantı" Bakı Bəyannaməsinə qoşulmağa çağırıb.

Görüşdə "Fors" MMC, "AzEkol" QSC, "Coca-Cola Bottlers Azerbaijan" MMC, "Carlsberg Azerbaijan" MMC, "Babək Sirab" ASC, Badamlı, "Norm" ASC, "Holcim (Azərbaycan)" ASC, "Veysəloğlu Qrup" MMC "Gədəbəy Mineral Sular" MMC, "Smart Veys" MMC, "Yağmur" MMC, Balaxanı Sənaye Parkının rezidentləri, EcoHub İctimai Birliyi, digər şirkət və qurumların nümayəndələri iştirak edib.

# Azərbaycan dili fənni üzrə imtahan keçiriləcək

***İyunun 30-da Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə növbəti imtahan keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb. Bildirilib ki, hər hansı səbəbdən ali və ya orta ixtisas təhsil müəssisələrinə qəbul olmaq üçün sənəd verən, lakin mayın 12-də keçirilən Azərbaycan dili imtahanında iştirak etməyən və ya iştirak edib "qeyri-məqbul" qiymət alan cari və əvvəlki illərin abituriyentləri və buraxılış imtahanı çərçivəsində ümumi (9 illik) və tam (11 illik) orta təhsil səviyyəsi üzrə mayın 12-də keçirilən imtahanda iştirak etməyən cari ilin məzunları üçün Azərbaycan dili fənni üzrə test imtahanı (ikinci cəhd) keçiriləcək.

İmtahan Bakı və Naxçıvan şəhərində 7 binada təşkil olunacaq.

Şagirdlər buradan, abituriyentlər isə buradan "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilərlər.

Qeyd edilib ki, imtahanın idarə olunması üçün 7 ümumi imtahan rəhbəri, 18 imtahan rəhbəri, 129 nəzarətçi ayrılıb, 19 buraxılış rejimi əməkdaşı (mühafizə), 7 bina nümayəndəsi ayrılıb.

İmtahanda 7 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) şagird (abituriyent) də iştirak edəcək. Bu şəxslərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib.



# Goranboyda Dövlət qulluqçularının sayı və onların əməkhaqqı barədə statistika

***"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qəbulundan ötən dövr ərzində dövlət qulluğu sahəsində geniş qanunvericilik bazası yaradılmış, həyata keçirilmiş islahatlar nəticəsində Azərbaycanda müasir dövlət qulluğu sistemi formalaşmış, dövlət qulluqçularının peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə zəruri addımlar atılmışdır.***



2024-cü il yanvarın 1-nə rayonda dövlət qulluqçularının sayı 228 nəfər olmuşdur ki, onların da 29 nəfərini qadınlar təşkil edir. Dövlət qulluqçularının 1,3 faizi dövlət orqanlarında inzibati vəzifələrin 4-cü təsnifatı, 0,9 faizi 5-ci təsnifatı, 2,6 faizi 6-cı təsnifatı, 89,0 faizi 7-ci təsnifatı, 6,2 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləmişdir.

Dövlət qulluqçularının 3,1 faizi 1 ilədək, 22,4 faizi 1 ildən 5 ilədək, 28,9 faizi 5 ildən 10 ilədək, 22,8 faizi 10 ildən 15 ilədək, 22,8 faizi isə 15 il və daha çox qulluq stajına malikdir.

Dövlət qulluqçularının 0,8 faizini 25 yaşadək, 15,4 faizini 25-29 yaşda, 17,1 faizini 30-34 yaşda, 8,8 faizini 35-39 yaşda, 13,6 faizini 40-44 yaşda, 8,3 faizini 45-49 yaşda, 10,5 faizini 50-54 yaşda, 10,1 faizini 55-59 yaşda, 15,4 faizini 60-64 yaşda olan şəxslər təşkil edir.

2023-cü ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 9,4 faiz artaraq 1310,2 manat təşkil etmişdir.

*Rəis Səxavət Qədirov*
*Tərtib etdi məsləhətçi*
*Ramin Babayev*

# Azərbaycanda köhnə avtomobillərin utilizasiyasına başlanıldı

***Azərbaycanda ekoloji sağlamlığın qorunması məqsədilə köhnə nəqliyyat vasitələrinin utilizasiyası prosesinə başlanılıb.***



"Unikal" xəbər verir ki, bunu Nazirlər Kabinetinin Kənd təsərrüfatı və ekologiya şöbəsinin müdiri Lətif Qasımov "Yaşıl dünya naminə həmrəylik: Dayanıqlı gələcək üçün tullantıdan dəyərə" adlı Beynəlxalq Forumda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, iqlim dəyişikliyi əhalinin həyat şəraitinə ciddi təsir göstərir: "Bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 tədbiri də ekoloji sağlamlıq üçün yeni imkanlar yaradır".

# Şabranda abonentlərin 70%-nin genişzolaqlı internetə çıxışı təmin edilib

***"Onlayn Azərbaycan" layihəsi çərçivəsində "Aztelekom" MMC Şabran rayonunda mövcud ev təsərrüfatı və biznes subyektlərinə GPON texnologiyası ilə yüksəksürətli internetə qoşulma imkanı yaradıb.***

"Unikal" xəbər verir ki, Şabran şəhərində şəbəkənin tikintisi başa çatdırılıb. Şəhər mərkəzində 5989 təsərrüfatdan 2334 ev təsərrüfatı və biznes subyekti GPON xidmətlərindən yararlanır. Rayonun Dəvəçikənd, Surra, Taxtalar, Sincanboyad, Dəvəçi, Mollakamallı, Ağalıq, Daşlıyataq, Söhbətli, Ağbaş kəndlərində 4557 təsərrüfat üçün şəbəkənin tikintisi başa çatdırılıb.

Ümumilikdə rayonda mövcud təsərrüfatların 70%-nin genişzolaqlı internetə çıxışı təmin edilib. Hazırda rayon ərazisində 3459 təsərrüfat GPON xidmətlərindən yararlanır və yeni qoşulmalar davam etdirilir.

GPON texnologiyasının tətbiqi ilə abunəçilərə daha yüksəksürətli (40 Mbit/s-dən 100 Mbit/s-dək) internet paketləri (internet, internet + telefoniya, internet + televiziya, internet + telefoniya + televiziya) təklif olunur. Xidmət haqqı seçilmiş tarifdən və müştəri tələbatından asılı olaraq 18 AZN-dən 48 AZN-dək dəyişir.

Vətəndaşlar xidmətlərə qoşulmaq üçün "Aztelekom"un "170" Çağrı Mərkəzinə zəng edə, ərazi üzrə xidmət göstərən şöbəyə, həmçinin www.aztelekom.az saytı vasitəsilə müraciət edə bilərlər.

Müasir texnologiyaların tətbiqi istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin həyata keçirdiyi "Onlayn Azərbaycan" layihəsi çərçivəsində ölkənin digər bölgələrində də yüksəksürətli internetin təmin edilməsi üçün müvafiq işlər planlı şəkildə davam etdirilir.

Qeyd edək ki, ümumilikdə 2,49 milyona yaxın təsərrüfat genişzolaqlı internetlə əhatə olunub. Bu, ölkədə mövcud ev təsərrüfatı və biznes subyektlərinin 85%-ni təşkil edir.

# Meymunçiçəyi virusuna yoluxanların sayı artır

***Ümumdünya Səhiyyə Təşkilatı bu il dünyada 3100 meymunçiçəyi xəstəliyinin qeydə alındığını açıqlayıb.***

"Unikal" xəbər verir ki, ÜST 2022-ci ildən bu xəstəliyə yoluxanların sayının 97 min nəfərə çatdığını bildirib.

Dünyanın 117 ölkəsində bu xəstəliyə yoluxma halları qeydə alınıb. ÜST mütəxəssisləri bunu qlobal səhiyyə sistemi üçün təhlükə hesab edir. May ayında dünyanın 26 ölkəsində 600 yoluxma halı qeydə alınıb. Xüsusilə Afrikada yoluxma halları artır.

Xatırladaq ki, bu xəstəliyin heyvandan insana ilk ötürülməsi halı 1970-ci ildə Konqo Demokratik Respublikasında qeydə alınıb.

*Ağarza Elçinoğlu*

21_27 IYUl-QARA.qxd 6/27/2024 11:52 PM Page 15





## Vahid Ələkbərov Rusiyanın ən zəngin adamı oldu

***Forbes jurnalı 2023-cü ildə Rusiyanın ən zəngin 50 adamının illik reytinqini dərc edib.***

"Unikal" xəbər verir ki, siyahıya "Lukoyl"un əsas səhmdarı olan Vahid Ələkbərov rəhbərlik edib. Onun dividend gəliri 177,4 milyard rubl dəyərində qiymətləndirilir.

Reytinqdə ikinci yerdə "Novatek" qaz şirkətinin səhmdarı Leonid Mixelson qərarlaşıb, onun dividend gəliri dövri nəşrin hesablamalarına görə 105 milyard rubl təşkil edib. Üçlüyü kimya istehsalçısı "Sibur Holding"in səhmdarı Gennadi Timçenko tamamlayır. Dünya Xokkey Liqasının Direktorlar Şurası sədrinin dividend gəliri 84,6 milyard rubl olaraq qiymətləndirilir.

## Ermənistanın Bakıda həbsdə olan "ən məşhur vətəndaşı"

***2021-ci ilin iyun ayında Ruben Vardanyan ona Ermənistan Respublikasının vətəndaşlığı verildiyi barədə məlumat verdi.***

"Unikal" xəbər verir ki, bunu erməni siyasətçi Mane Tandilyan deyib.

Onun sözlərinə görə, bundan bir neçə gün sonra Ruben əlində pasportla Ermənistan Respublikasının vətəndaşı kimi erməni xalqına müraciət etdi: "Ruben Vardanyan bəlkə də dövrümüzün dünyasında Ermənistan Respublikasının ən məşhur vətəndaşıdır. Amma utanıram ki, Bakıda vətəndaşları həbsxanada olan bir ölkənin vətəndaşıyam".

## Rusiya qəhrəmanı adından məhrum edildi, 11 il müddətinə həbs olundu

***Rusiya qəhrəmanı İrek Maqasumov qəhrəman titulundan məhrum edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Luqansk Qarnizonunun hərbi məhkəməsi qərar verib. O, qətl və xuliqanlıq ittihamı ilə 11 il müddətinə azadlıqdan məhrum olunub. Maqasumov cəzasını ciddi rejimli koloniyada çəkəcək.

Müdafiəçinin sözlərinə görə, polkovnik-leytenant hərbi rütbəsinin və üç şücaət ordeninin saxlanılması qərara alınıb.

## "Çox içdiyimiz üçün ertəsi günü unuduruq" - Paşinyan

***"Bir gün əvvəl çox içdiyimiz üçün ertəsi günü unuduruq".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan iyunun 27-də hökumətin iclasında bildirib.

Paşinyan məktəblərlə bağlı danışarkən qeyd edib ki, uşaqlar sonuncu yerdədir: "Biz çox əsas bir qərar verməliyik: məktəb kimin üçündür? Məktəb çörəkçi, elektrikçi, santexnik üçün iş yeri deyil, seçki məntəqəsi deyil, hətta müəllim və direktor üçün də deyil, məktəb uşaq üçündür.

Amma bizim reallıqda bunun əksini görürük, uşaqlar siyahının sonundadırlar və biz çox vaxt içdiyimiz üçün, ertəsi günü uşaqlara göstərilən xidmətləri unuduruq".

Səhifəni Ağarza Elçinoğlu hazırladı

# "Sülh müqaviləsinin mətnini demək olar ki, yekunlaşdırmışıq" - Mirzoyan

***"Azərbaycanla sülh müqaviləsi layihəsinin mətnini demək olar ki, yekunlaşdırmışıq".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Estoniyada həmkarı ilə keçirdiyi mətbuat konfransında deyib.

O, Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycan münasibətlərinə toxunaraq, regional proseslərdən də danışıb: "Azərbaycanla münasibətlərə gəlincə, biz danışıqlar prosesini davam etdiririk. Sülh müqaviləsi layihəsinin mətnini demək olar ki, yekunlaşdırmışıq. Ermənistan bir ay içərisində mətni tamamilə yekunlaşdırmağa və Azərbaycanla sülh sazişini imzalamağa hazırdır.

Mən həmkarıma (Hakan Fidan) Cənubi Qafqazda baş verən son hadisələri, o cümlədən Ermənistanın qonşuları ilə münasibətlərini təqdim etdim. Ermənistan Türkiyə ilə diplomatik münasibətləri tam bərpa etməyə, sərhədləri açmağa və münasibətləri tənzimləməyə hazırdır. Artıq üçüncü ölkə vətəndaşları və Ermənistan və Türkiyə diplomatik pasportlarına malik vətəndaşlar üçün sərhədin açılması ilə bağlı konkret razılaşmalarımız var. Hesab edirəm ki, artıq həmin razılaşmaların həyata keçirilməsinin vaxtı çatıb".

# "Mərkəzi Asiya ölkələri Azərbaycandan keçməlidirlər" - Blinkenin müavini

***"Mərkəzi Asiya ölkələri yalnız Çin və ya Rusiya vasitəsilə ixrac edirlər. Çıxış yolu tapmaq üçün Azərbaycandan keçməlidirlər".***

"Unikal" xəbər verir ki, bunu ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Ceyms O'Brayen Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin dinləmələrində çıxışı zamanı deyib.

O, Bakıya gözlənilən səfərə toxunub: "Biz Prezident Əliyevlə aydınlaşdırdıq ki, sülhü bərqərar etməyin vaxtı çatıb. Bu, təkcə COP29-a ev sahibliyi edəcəyi üçün dünya lideri kimi hörmət qazanmağa ümid edən Azərbaycanın deyil, həm də bütün regionun və Mərkəzi Asiyanın problemidir. Bütün bu ölkələr yalnız Çin və ya Rusiya vasitəsilə ixrac edirlər. Çıxış yolu tapmaq üçün Azərbaycandan keçməlidirlər. Bir marşrut Gürcüstan və Qara dənizdən, digəri isə potensial olaraq daha böyük olan Azərbaycan, Ermənistan və Türkiyədən keçəcək və buna görə də 90-cı illərdən bəri müharibəyə və mövcud olan dəhşətli münaqişəyə son qoymaq üçün Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinə ehtiyacımız var. Bizim mesajımız ondan ibarətdir ki, sülhün bərqərar olmasının vaxtı çatıb".



# İranın vitse-prezidenti namizədliyini geri götürdü

***İranın vitse-prezidenti Əmir Hüseyn Qazizadə Haşimi prezident seçkilərində namizədliyini geri götürüb.***



"Unikal" xəbər verir ki, bu barədə o, özünün X səhifəsində yazıb. "İnqilabi Qüvvələrin birliyini qorumaq üçün və İslam İnqilabı Qüvvələrinin Koalisiya Şurasının, eləcə də bəzi alim və tərəfdarların tələbinə cavab olaraq yolu davam etdirməkdən imtina etdim və ümid edirəm ki, mənim üç qardaşım fürsətdən istifadə edərək hərəkatın inqilabını birləşdirib gücləndirəcəklər", - vitse-prezident qeyd edib.

Haşiminin sözlərinə görə, indi onun vəzifəsi ölkənin maraqlarını qorumaqdır.

Qeyd edək ki, İranda növbədənkənar prezident seçkiləri iyunun 28-nə təyin edilib.

# "Paşinyan Qarabağdakı sülhməramlı missiyanı çətin vəziyyətə saldı" - Zatulin

***Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın guya Rusiya Qarabağı Azərbaycana "təslim edib" deməsi açıq-aşkar yalandır.***

"Unikal" xəbər verir ki, bu barədə "RİA Novosti"yə Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulin açıqlayıb. Onun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyana Qarabağ lazım deyildi: "O, Rusiyanın Dağlıq Qarabağdakı sülhməramlı missiyasını çətin vəziyyətə salıb. Görünür, onun Qərblə yeni dostluğunun şərti bu idi, axı Qarabağda Rusiya sülhməramlıları Qərbə lazım deyil. Yeri gəlmişkən, Ermənistanın KTMT-yə üzvlüyü və ya Rusiyanın Gümrüdəki hərbi bazası kimi. Hər şeyə görə, bunlar növbəti suallardır və bunu heç bir şəkildə cənab Paşinyan tərəfdarları və onun özü gizlətmir".



21_27 IYUI-QARA.qxd 6/27/2024 11:52 PM Page 16



# AVRO-2024: Türkiyə millisinin oyununda vərəqə rekordu qeydə alındı



***Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) Almaniyada keçirilən Avro-2024-də E və F qruplarında yer alan komandalarla bağlı maraqlı göstəriciləri açıqlayıb.***

"Unikal" IFFHS-nin rəsmi saytına istinadən xəbər verir ki, Avropa çempionatları tarixində ilk dəfə bir qrupda (E) bütün yığmalar (Rumıniya, Belçika, Slovakiya, Ukrayna) eyni sayda - 4 xal toplayıblar. Ukrayna millisi 4 xal toplayaraq qrupda sonuncu yeri tutan ilk komanda olub.

Ondrey Duda iki Avropa çempionatında (Avro-2016, Avro-2024) qol vuran ilk slovakiyalı oyunçu kimi tarixə düşüb.

Belçika seçməsinin futbolçuları Kevin De Brüyne və Romelu Lukaku Avropa və dünya çempionatlarında oyun sayına (25) görə Tibo Kurtuaya çatıblar.

F qrupunun Çexiya-Türkiyə matçında (1:2) Avropa çempionatları tarixində rekord sayda vərəqə göstərilib - 17 sarı, 2 qırmızı. Belə hal indiyədək dünya çempionatlarında da qeydə alınmayıb.

Türkiyə millisi yarımfinalçı olduğu Avro-2008-dən sonra ilk dəfə qitə çempionatında pley-off mərhələsinə yüksəlib.

Çexiya yığmasının üzvü Antonin Barak Avro-1996 və Avro-2000-də qırmızı vərəqə alan Radoslav Lataldan sonra Avropa çempionatında meydandan qovulan ikinci çexiyalı oyunçudur. O, qitə çempionatlarında matçın ilk 20 dəqiqəsində 2-ci sarı vərəqə görən ilk futbolçudur.

F qrupunun son turunda Portuqaliya yığmasına 2 cavabsız qolla qalib gələn Gürcüstan millisi görüş ərzində cəmi 28 faiz topa sahibolma ilə oynayıb. Bu isə hazırkı turnirdə qələbə qazanan komandalar arasında ən aşağı göstəricidir.

Gürcülər, həmçinin Portuqaliyanın Roberto Martinesin rəhbərliyi altında 12 oyunluq məğlubedilməzlik seriyasına son qoyub.

Portuqaliya millisinin lideri Kriştiano Ronaldo əsas turnirlərdə (Avropa çempionatlarında 28, dünya çempionatlarında 22) milli komandanın heyətində 50 görüş keçirən ilk avropalı futbolçudur. Onu Almaniya yığmasının iki sabiq və bir hazırkı üzvü izləyir. Bunlar Bastian Şvaynştayger (38), Miroslav Kloze və Manuel Noyerdir (hər ikisi 37).

K.Ronaldo karyerasında ilk dəfə böyük turnirlərin qrup mərhələsində qol vura bilməyib.

Gürcüstan millisinin hücumçusu Xviça Kvaratsxeliya Avropa çempionatları tarixində ən erkən 5-ci qolun (1 dəqiqə 32 saniyə) müəllifi olub. Bu, həm də Portuqaliyanın 1966-cı il dünya çempionatında Şimali Koreyadan (50-ci saniyədə) buraxdığı topdan sonra böyük turnirlərdə qapısında gördüyü ən erkən qoldur.

Gürcüstan seçməsinin digər forvardı Jorj Mikautadze isə Avro-2024-ün qrup mərhələsində 3 qol vuran yeganə futbolçudur. O, Uels millisinin sabiq üzvü Qaret Beyldən sonra Avropa çempionatının ilk üç matçında fərqlənən və ya məhsuldar ötürmə edən ikinci oyunçudur. Beyl bu uğura 2016-cı il Avropa çempionatında imza atıb.

Gürcüstan millisinin qapıçısı Giorgi Mamardaşvili Avro-2024-ün qrup mərhələsində hamıdan çox - 21 seyv edib. O, bu göstərici ilə latviyalı həmkarı Aleksandr Kolinkonun 2004-cü il Avropa çempionatındakı rekordunu təkrarlayıb.

# Azərbaycan millisi 3-cü dəfə Avropa çempionu oldu

***U-17 Avropa çempionatında yunan-Roma güləşi üzrə yarış başa çatıb.***

"Unikal" Azərbaycan Güləş Federasiyasına istinadən xəbər verir ki, millimiz daha bir tarixi nəticəyə imza atıb. Novi Sada böyük məşqçi Taleh İsrafilov və məşqçilər Rasim Ağayevlə Elbrus Məmmədovun rəhbərliyi altında yollanan komandamızın 10 üzvündən 9-u medal (3 qızıl, 2 gümüş, 4 bürünc) qazanıb.

Azərbaycan 183 xalla komanda hesabında Avropa çempionu olub. Millimiz 2-ci pillədə yer alan Ermənistanı 51 xal qabaqlayıb. Ukrayna 121 xalla üçüncü yeri tutub.

Beləliklə, U-17 yunan-Roma güləşi üzrə yığmamız 3-cü dəfə (2021, 2022, 2024) Avropanın ən güclü komandası olub.

Bu yarışda millimiz medalların sayına və toplanan xallara görə də yeni rekorda imza atıb.




Xatırladaq ki, millinin heyətində Turan Daşdəmirov (51 kq), Ayxan Cavadov (60 kq) və Səid Paşayev Avropa çempionu olub. Əmrah Əmrahovla (48 kq) Yusif Əhmədli (71 kq) gümüş, Nicat İsgəndərli (45 kq), Əli Nəzərov (55 kq), Orxan Hacıyev (80 kq) və Mikayıl İsmayılov bürünc medal qazanıb.

## "Araz-Naxçıvan"da 26 yaşlı məşqçi

***Premyer Liqa klublarından olan "Araz-Naxçıvan"ın məşqçilər heyətində dəyişiklik edilib.***

Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Şimali Makedoniyadan olan Teodor Terziev fiziki hazırlıq üzrə məşqçi təyin olunub. 26 yaşlı mütəxəssislə bir illik müqavilə imzalanıb.

Qeyd edək ki, 2022-ci ildən "Rabotniçki" klubunda çalışan UEFA-nın A kateqoriyalı məşqçi lisenziyasına sahib T.Terziev paralel olaraq ötən ildən Şimali Makedoniyanın 19 yaşadək futbolçulardan ibarət milli komandasında da fəaliyyət göstərib.

## "Sabah"ın rəqibi futbolçusunu satdı

***"Sabah"ın Konfrans Liqasının 2-ci təsnifat mərhələsindəki rəqibi "Makkabi" (Hayfa, İsrail) futbolçusu Stav Naxmanini satıb.***

QOL.az xəbər verir ki, 21 yaşlı hücumçu "Aşdod"a (İsrail) keçib. Bu barədə sözügedən klubun mətbuat xidməti məlumat yayıb. Naxmani ilə 2 illik müqavilə imzalanıb.

Futbolçu ötən mövsümü icarə əsasında "Aşdod"da keçirmişdi.

Xatırladaq ki, "Sabah" və "Makkabi" arasında oyunlar iyulun 25-də və avqustun 1-də keçiriləcək.

## Bellinqem Harri Keyni təhqir etdi

***İngiltərə millisinin futbolçusu Cud Bellinqem Avropa çempionatının qrup mərhələsinin III turunda Sloveniya ilə oyun zamanı komanda yoldaşı Harri Keynin ünvanına nəlayiq ifadələr işlədib.***

"Unikal" xəbər verir ki, bu barədə İngiltərə mediası məlumat yayıb. 21 yaşlı yarımmüdafiəçi birinci hissənin sonlarına yaxın H. Keyninin topla olduğu vaxt onu təhqir etməyə başlayıb.

Görüş qolsuz heç-heçə ilə yekunlaşıb. Bununla da qrupu 5 xalla lider bitirən İngiltərə yığması 1/8 finala yüksəlib.

Qeyd edək ki, Qaret Sautqeytin komandası 1/8 finalda Slovakiya ilə qarşılaşacaq.

## Avropa çempionatında 1/8 final CÜTLƏRİ

***Almaniyada təşkil olunan futbol üzrə XVII Avropa çempionatında qrup mərhələsinə yekun vurulub.***

"Unikal" xəbər verir ki, F qrupunun oyunlarından sonra 1/8 finalın bütün cütlükləri bəlli olub.

**1/8 final mərhələsi**

Almaniya - Danimarka
Fransa - Belçika
İsveçrə - İtaliya
İspaniya - Gürcüstan
Portuqaliya - Sloveniya
Rumıniya - Niderland
Avstriya - Türkiyə
İngiltərə - Slovakiya

Qeyd edək ki, 1/8 final mərhələsinin oyunlarına iyunun 29-da start veriləcək.

## Ekvador və Venesueladan qələbə

***Amerika Kubokunda 2-ci turun oyunları davam edir.***

Yarışda 2 matç keçirilib. B qrupunda Yamayka Ekvadorla qarşılaşıb. Ekvadır oyunda 3:1 hesablı qələbə qazanıb.

Eyni qrupda Venesuela Meksika ilə üz-üzə gəlib və 1:0 hesablı qələbəyə sevinib.

Qeyd edək ki, Venesuela millisi artıq 1/4 finala vəsiqəni təmin edib.

Amerika Kuboku, 2-ci tur
Ekvador - Yamayka - 3:1
Qollar: Palmer, 13-avtoqol, Paez, 45+4-pen; Minda, 90+1 - Antonio, 54
Venesuela - Meksika - 1:0
Qol: Rondon, 57-pen.